www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 may 2018-ci il Cümə № 97 (6986) Qiymәti 60 qәpik

**Xəbər**

## Deputat yeni həbslərin anonsunu verdi

yazısı səh.7-də

**Gündəm**

### MDB dağılır, bəs Bakı nə etsin...



Ukrayna qurumla əməkdaşlığı dayandırmaq haqda qərar verdi; ekspertlər Azərbaycanın hansı addım atmalı olduğundan danışdı

yazısı səh.10-da

### Kəlbəcərli girovların erməni diversantla dəyişdirilməsi gündəmdədir

yazısı səh.3-də

### Əfv mayın 10-da olmaya bilər-komissiya işləri yekunlaşdıra bilmir

yazısı səh.4-də

### Yollar yenə can alır: ölümlərin artmasının səbəbləri...

yazısı səh.6-da

### "Hərbi vəziyyət haqqında" Qanuna dəyişiklik - müharibə başlayacaq?

yazısı səh.10-da

### Azərbaycan müxalifətindən Ərdoğana tam dəstək

yazısı səh.11-də

### Bitərəf deputatlar MSK-da təmsilçisiz qalıb

yazısı səh.12-də

### 7 min tələbə pulsuzluqdan təhsilini davam etdirə bilməyib

yazısı səh.13-də

### Sosial şəbəkələri bağlamaq çağırışları səngimir

yazısı səh.12-də

### Nübar meyvələr hamının cibinə uyğun deyil

yazısı səh.14-də

### İpoteka ilə bağlı yeni fərman təqdir edilir

yazısı səh.6-da

# GENERAL ƏLİXANOVU BİTİRƏN QAÇIŞ

65 yaşı mayın 1-də tamam olan Penitensiar Xidmətin rəis müavini Hüseyn Əlixanovun dərhal təqaüdə göndərilməsinin gerçək səbəbləri; qaçan dustaqlara görə təkcə həbsdə olan bacısı oğlunun deyil, özünün də məsuliyyəti vardı...




yazısı səh.5-də

## Ermənistan üçün gerisayım başladı - İrəvan iki od arasında

İşğalçı ölkənin taleyi ilə bağlı suallar çoxalır - Qərblə Rusiyanın Ermənistan davası böyüyür; Rusiya nəşri: " Paşinyan baş nazir kimi Moskva üçün başağrısı olacaq..."

yazısı səh.8-də



### Ziya Məmmədovun oğlu 25 milyona Böyük Britaniya vətəndaşlığı alıb

yazısı səh.7-də




### Abbas Abbasovun oğlu bəyanat yaydı-reaksiya

yazısı səh.4-də



### Eldar Mahmudov özünə vəkil tutdu

yazısı səh.5-də

# İyunda ardıcıl 5 gün iş olmayacaq



## Aygün Bəylərin qardaşına 5 il həbs verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində birgə marixuana əkdikləri dostlarını öldürməkdə təqsirləndirilənlər - Abbas Hümmətov, Fuad Məmmədzadə, Elmir Alxazov, Ramil Əsirov, Elnur Əsirov, Cavid Alxazova hökm oxunub.**

Musavat.com-un verdiyi xəbərə görə, hakim Cavid Hüseynovun icraatında olan prosesdə məhkəmə kollegiyasının hökmü ilə F.Məmmədzadə, R.Əsirov və E.Alxasovun hər biri 15 il, A.Hümmətov və C.Alxasovun hər biri 5 il müddətinə azadlıqdan məhrum edilib.

Təqsirləndirilən şəxslərin hər biri narkotik ittihamı üzrə bəraət alıblar. A. Hümmətov və C. Alxasov həm də qətl üzrə bəraət alıblar.

E.Əsirova isə bütün maddələr üzrə bəraət verilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, təqsirləndirilənlərdən biri, Abbas Hümmətov əməkdar artist Aygün Bəylərin qardaşı, qətlə yetirilən Elnur Hümmətov isə əmisi nəvəsidir.




## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Bakcell"dən ikiqat internet

### May ayı ərzində internet paketi alan abunəçilər əlavə pul ödəmədən ikiqat internet trafiki əldə edəcəklər

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti dövlət səviyyəsində qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə öz abunəçiləri üçün inanılmaz hədiyyə kampaniyası elan edib.**

**Ən böyük milli şirkətlərdən biri olan "Bakcell" Azərbaycan vətəndaşlarına, ölkənin tarixi və adət-ənənələrinə yüksək dəyər verən və eyni zamanda müasir mobil rabitə istifadəçilərin ehtiyac və tələblərini anlayan innovativ telekommunikasiya operatoru kimi, sərfəli qiymətə yüksək keyfiyyətli həllər təklif edir.**

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək məqsədilə, "Bakcell" özünün CİN və Klass abunəçilərinə 1-31 may 2018-ci il tarixlərində davam edəcək kampaniya çərçivəsində əlavə pul ödəmədən 100% daha çox internet təklif edir.**

**Beləliklə, xüsusi kampaniyanın şərtlərinə əsasən, may ayı ərzində 1GB və daha böyük həcmli internet paketini əldə edən hər bir abunəçi istifadə müddəti bir ay olan ikiqat internet trafiki əldə edəcək. Bu misilsiz kampaniya sayəsində "Bakcell" abunəçiləri 20 GB-dək pulsuz interneti hədiyyə şəklində ala biləcəklər.**

**Bu təklifdən yararlanmaq üçün abunəçilər kampaniyada iştirak edən internet paketlərindən (1GB, 1.5GB, 3GB, 5GB, 10GB və ya 20GB) birini əldə etməlidir.**

**Qeyd edək ki, bütün İnternet paketləri istifadə müddətləri bitəndən sonra balansda kifayət qədər vəsait olarsa, avtomatik olaraq yenilənir. İnternet paketlərdə təqdim edilən trafik bitəndən sonra, "yüksək sürət" xidməti aktivləşir.**

**Kampaniya barədə daha ətraflı məlumatla https://www.bakcell.com/az/double_internet_as_a_100th_anniversary_treat səhifəsində tanış ola bilərsiniz.**

**Abunəçilərin mobil data xidmətlərinə artan tələbatını qarşılamaq üçün "Bakcell" müasir smartfon istifadəçiləri üçün innovativ və sərfəli həllər təklif edir. Yüksək keyfiyyətli 4G şəbəkəsinə yatırılmış investisiyalar sayəsində, Bakcell abunəçiləri ən geniş əhatə dairəsi olan LTE texnologiyasından və ölkədə ən yaxşı mobil şəbəkənin bütün üstünlüklərindən istifadə etmək imkanına malikdirlər. "Bakcell"şirkətinin tətbiq etdiyi ən müasir "LTE Advanced" texnologiyası sayəsində, operatorun abunəçiləri saniyədə 225 meqabitə çatan sürətin imkanlarından yararlanırlar.**

**"Bakcell" şirkəti innovativ və son texnologiyalar əsasında yaradılmış xidmətlər, sərfəli kampaniyalar, yüksək keyfiyyət və geniş şəbəkə əhatə dairəsi ilə öz müştərilərini sevindirməyə davam edəcək.**

## İcra başçısı gənc xanımı özünə müavin təyin etdi

**Bakı şəhəri Pirallahı Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini vəzifəsinə gənc xanım təyin edilib.**

Unikal.org-un əldə etdiyi məlumata görə, bu vəzifəyə 30 yaşlı Anara Kamil qızı Hacıbəyli təyin edilib.

Məlumat üçün qeyd edək ki, bu təyinata qədər Anara Hacıbəyli İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Aparatında baş məsləhətçi vəzifəsində çalışırdı.

Pirallahı Rayon İcra Hakimiyyəti sözügedən xəbəri təsdiqləyib.

Qeyd edək ki, Anara Hacıbəyli ailəlidir və 2 övladı var.

## Ağcabədi sakini anasını döyüb öldürdü

**Mayın 2-də saat 1 radələrində Ağcabədi rayon sakini Mahirə Azadovanın yaşadığı evdə ölmüş vəziyyətdə aşkar edilməsi barədə Ağcabədi Rayon Polis Şöbəsinə məlumat daxil olub.**

DİN-in mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, daxil olmuş məlumatla əlaqədar dərhal polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.

Təxirəsalınmaz istintaq və əməliyyat tədbirləri ilə M.Azadovanın həmin gün oğlu, əvvəllər məhkum olunmuş Elman Kərimovla aralarında münaqişə olması, Elmanın sərxoş halda anasını, habelə qardaşı oğlu Bağdan Kərimovu döyməsi müəyyən edilib.

Cinayəti törətməkdə şübhəli bilinən E.Kərimov polis əməkdaşları tərəfindən tutulub.

## Jurnalistlər üçün ən təhlükəli ölkə

**Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, Suriyada 2011-ci ilin mart ayından bu günə kimi öldürülən jurnalistlərin sayı 682 nəfərə bərabərdir.**

Bunu Suriya İnsan Haqları üzrə Müşahidə Şurası 3 may "Dünya mətbuat azadlığı günü"nə həsr etdiyi xüsusi hesabatında qeyd edib.

Hesabatda qeyd olunur ki, Bəşər Əsəd rejimi və İrana dəstək olan terror qrupları beşi xarici jurnalist olmaqla 538 KİV əməkdaşını qətlə yetirib. Eyni zamanda Rusiyaya xdmət edən "güc"lər 18 jurnalistin həyatına son qoyub. Bundan başqa İŞİD üçü xarici jurnalist olmaqla, 64 jurnalisti edam edib, YPG və PKK qruplaşması 4 jurnalisti öldürüb.

Hesabatda qeyd olunub ki, müxalif rejimlə hakim rejim arasında silahlı toqquşmalar zamanı 25 jurnalist həlak olub. Ümumilkdə 37 jurnalist amansız işgəncələrə məruz qalaraq öldürülüblər.

Məlumata görə, 33-ü xarici jurnalist olmaqla, 1116 jurnalist qaçırılıb.

**İyun ayında Azərbaycan xalqının Milli Qurtuluş günü və Ramazan bayramı ilə əlaqədar ardıcıl 5 gün iş olmayacaq. "Report"un xəbərinə görə, iyunun 15-də Milli Qurtuluş günü ilə əlaqədar qeyri-iş günüdür.**



Ayın 15-16-da isə ölkədə Ramazan bayramı qeyd olunacaq. Əmək Məcəlləsinə əsasən, iyunun 15-də Milli Qurtuluş günü ilə Ramazan bayramı eyni günə düşdüyündən, bundan başqa, iyunun 16-sı da şənbə gününə təsadüf etdiyindən ayın 18-19-da da iş olmayacaq. Beləliklə, ölkədə ardıcıl - iyunun 15-i, 16-sı, 17-si (bazar günü), 18-i, 19-u qeyri-iş günüdür. Növbəti iş günü iyunun 20-də olacaq. İyunun 26-sı isə Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü olduğundan həmin gün qeyri-iş günüdür.

## Dərman vasitələrinin reklamı qadağan edilə bilər



**Azərbaycanda dərman vasitələrinin reklamının qadağan edilməsi təklif edilir. APA-nın məlumatına görə, bu təkliflə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov komitənin iclasında çıxış edib.**

O qeyd edib ki, dərmanların reklamı alkoqollu içkilərin və siqaretin reklamından da təhlükəlidir: "Bu, Avropada da həssas məsələdir və məhdudiyyətlər var. Biz də buna yenidən baxmalı və məhdudlaşdırmalıyıq. Çünki son vaxtlar baş verənlər buna kifayət qədər əsas verir".

## "Nar" 2018-ci ilin ilk rübünün nəticələrini açıqladı

Gəlin birlikdə böyüyək

**"Azerfon" MMC ("Nar" ticarət nişanı) cari ilin ilk rübünün nəticələrini açıqlayıb. Nəticələrə əsasən, bu dövr ərzində şirkət bir çox göstəricilər üzrə yüksək artım dinamikası nümayiş etdirib. Bu göstərici üzrə təkcə paytaxt ərazisində deyil, həmçinin bölgələrdə də yüksək nəticə əldə edilmişdir ki, bu da mobil operatorun regionlardakı şəbəkəsinin gücləndirməsi sayəsində mümkün olmuşdur. Belə ki, "Nar"ın sərfəli internet paketləri sayəsində ilin ilk rübündə mobil internetdən istifadədə 68% artım olmuşdur. Dünya təcrübəsində mobil zənglərə tələbatın azalma trendinə baxmayaraq, "Nar"da səsli zənglərin həcmi keçən ilə nisbətdə dəyişməz olaraq qalmışdır.**

**Cari ilin ilk üç ayı ərzində mobil operator ölkə ərazisində 156 yeni baza stansiyası quraşdırmışdır. Mobil operator Bakı şəhəri və Abşeron yarımadasında 84, Gəncə, Göyçay, Quba, Cəlilabad, Mingəçevir, Salyan, Şəki, Şəmkir, Tovuz, Zaqatala və respublikanın digər bölgələrində isə 63 yeni LTE baza stansiyasını istifadəyə vermişdir. Artıq bölgələrdəki "Nar" abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə edirlər.**

**"Cari ilin ilk rübündə göstərdiyimiz nəticələri çox müsbət qiymətləndirirəm. Bu nəticələr "Nar"-ın sərfəli qiymətləri və abunəçi yönümlü strategiyası sayəsində mümkün olmuşdur. Şəbəkə infrastrukturuna yatırdığımız sərmayələr nəticəsində 3G və 4G şəbəkəmizi əhəmiyyətli dərəcədə genişləndirdik", - deyə "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke nəticələri şərh edərkən bildirib.**

**Hazırda genişləndirilmiş "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdır.**

## Vergilər naziri sahibkarlarla görüşdü

**Mayın 3-də vergilər naziri Mikayıl Cabbarov Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla görüşüb.**

"Report" xəbər verir ki, görüş Bakıdakı hotellərdən birində təşkil olunub.

Görüşdə Azərbaycan Sahibkarlar Konfederasiyasına (ASK) daxil olan iri istehsal müəssisələrinin, Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) üzvləri, audit şirkətlərinin, bankların rəhbər şəxsləri, eləcə də assosiasiya rəhbərləri olmaqla, təqribən 120 nəfər iştirak edib.


İradə Əyyubova

## Azərbaycanlı xanım nazir oldu

**Əslən Azərbaycandan olan İradə Əyyubova Tatarıstanın mədəniyyət naziri təyin edilib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bu barədə əmri Tatarıstan prezidenti Rüstəm Minnixanov imzalayıb.

İradə Əyyubova bu vaxta qədər Tatarıstan Arxiv İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışıb.

Bakıda anadan olan Əyyubova 1993-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib.

Ailəlidir, bir qızı var.

## Mingəçevirdə iş adamına elektroşok verib 70 min manatını oğurladılar

**Mingəçevirin "Azdres" qəsəbəsində işə gedən 32 yaşlı Elvin Abdullayev iki nəfərin hücumuna məruz qalıb.**

"ARB TV"dən virtualaz.org-a verilən xəbərə görə, hadisə zamanı şirkət işçisi olan E.Abdullayevin üzərində külli miqdarda pul olub. Cinayətkarlar Elvinə elektroşokla təsir göstərdikdən sonra içərisində 70 min manat olan çantanı götürərək hadisə yerindən uzaqlaşıblar.

Zərərçəkənin atasının sözlərinə görə oğlu pulu şirkətə təhvil verməli imiş.

**Rafiq Abdullayev (zərərçəkənin atası):** "Oğlum deyir ayağımı ikinci mərtəbəyə basanda arxadan elektroşok veriblər. Bu zaman halsız vəziyyətə düşüb və yuvarlanaraq 2-ci mərtəbə ilə 1-ci mərtəbənin arasına düşüb. Oğlum halsız vəziyyətdə sumkanı əlindən buraxan kimi, onlar pulu götürüb qaçıblar. Şirkətə məxsus 70 min manat pul olub. Onun 5 minə qədəri isə düşüb "padyezə"".

**Faktla bağlı araşdırma aparılır.**

# Azərbaycanın İranla birgə neft şirkəti yaratması-Qərb qıcıqlana bilərmi?

## Elxan Şahinoğlu: "ABŞ-la İsrail buna görə Azərbaycana hər hansı bir tələb irəli sürməzlər"

**Azərbaycanla İran Xəzər dənizində kəşfiyyat və hasilat işlərini həyata keçirəcək birgə neft şirkəti yaradacaqlar. Bu sözləri İranın neft nazirinin müavini Əmir Hüseyn Zamani yerli mətbuata açıqlamasında deyib.**

Onu sözlərinə görə, birgə şirkətin yaradılması cari il martın 28-də İran prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri zamanı tərəflər arasında razılaşdırılıb. Hazırda İran tərəfi lazımi işləri həyata keçirərək yeni birgə şirkətin qurulmasının hüquqi əsasını hazırlayır. Birgə şirkət hər iki tərəfə iqtisadi səmərə gətirəcək.

Nazir müavini onu da nəzərə çatdırıb ki, İranla Qərb ölkələri arasında nüvə proqramına dair imzalanmış razılaşma pozulsa, bu, Azərbaycan ilə neft və qaz sahəsindəki əməkdaşlığa heç bir təsir göstərməyəcək.

Cənub qonşumuzla birgə neft şirkətinin yaradılması ilə bağlı müxtəlif mövqelər var. Bunun Azərbaycan üçün müsbət nəticələrinin daha çox olduğu yönündə fikirlər səslənsə də, əks mövqelər də var. Xəzərin hüquqi statusunun müəyyənləşməsi yolunda Xəzəryanı ölkələr arasında razılığın əldə olunduğu bir zamanda İranla Azərbaycan arasında Xəzərin yataqları ilə bağlı anlaşmanın əldə edilməsi müsbət dəyərləndirilir. Lakin Rəsmi Tehranın Amerika başda olmaqla, Qərb dövlətləri ilə gərgin münasibətlərinin, eləcə də son günlərdə İranla İsrail arasındakı qarşıdurmanın dərinləşməsi fonunda Azərbaycanın bu addımının müəyyən risklərə yol aça biləcəyi qeyd olunur. Xüsusilə İrana qarşı Qərbdən gələn və gələcəkdə artacağı gözlənilən sanksiyaların bir ucunun ölkəmizə toxunacağından ehtiyat olunur. Təhlükəsizlik baxımından da bəzi təhlükələrdən söz açılır.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Azərbaycan-İran arasında birgə neft şirkətinin yaradılması yönündə əldə olunan razılığı normal qəbul edir:** "Azərbaycanla İran arasında birgə neft şirkətinin yaradılmasında qəbahətli heç nə görmürəm. Məncə, ABŞ-la İsrail buna görə Azərbaycana hər hansı bir tələb irəli sürməzlər. Necə ki, Azərbaycan başqa dövlətlərin daxili işlərinə qarışmır, eləcə də böyük dövlətlər Azərbaycanın daxili işlərinə qarışmamalıdırlar. İkili münasibətlərimiz üçüncü dövlətə qarşı yönəlməyib. Söhbət İranla hərbi ittifaqının yaradılmasından getmir ki, ABŞ və İsrail bundan narahat olsunlar. Söhbət Xəzərdə Azərbaycanla İran arasında faydalı neft əməkdaşlığının genişlənməsindən gedir. Zatən Qərb ölkələrinin bir qismi dünya bazarlarında İran neftinin əsas alıcılarındandır. İran qonşumuzdur, bütün qonşularla normal və tərəfdaş münasibətlərimiz olmalıdır. Ermənistan torpaqlarımızı işğal etdiyindən onunla haqlı olaraq heç bir iqtisadi münasibətlərimiz yoxdur. Ancaq Ermənistanın xaricində bütün qonşularla ortaq layihələrimiz var. Əlbəttə, İranın Ermənistanla əlaqələri və sərhədi açıq tutması bizim xoşumuza gəlmir və bu, zaman-zaman bizdə müxtəlif suallar doğurur. Ancaq bu o demək deyil ki, biz İranla əməkdaşlıq etməməliyik, tam əksinə, İrana sübut etməliyik ki, onun üçün Azərbaycanla əməkdaşlıq daha faydalıdır. İrana 500 milyon dollar krediti Ermənistan verməyib, Azərbaycan verib. Regionun əsas layihələri Azərbaycanla bağlıdır, Tehranda bunu da anlayırlar. ABŞ və İsrail də anlamalıdırlar ki, onlar istəyir deyə biz İranla düşmən ola bilmərik, qonşu ölkə ilə əməkdaşlığı azalda da bilmərik. Əgər belə bir istəkləri varsa, birinci Ermənistana müraciət etsinlər ki, niyə İranla əməkdaşlıq edir? Azərbaycanla İran arasındakı artan iqtisadi əməkdaşlıq, həyata keçirilən ortaq layihələr siyasi müstəvidə də yaranan sualları zaman-zaman ortadan qaldırmalıdır. Məndə olan məlumata görə, İran prezidenti Həsən Ruhani Bakıda olarkən ölkəsinin Azərbaycana hər növ silah satmağa hazır olduğunu bildirib. Əgər modern silahları varsa, niyə də almayaq? Qoy əlimizdə həm İsrail, həm də İran silahları olsun. Bu bir tərəfdən Azərbaycanın balanslaşdırılmış xarici siyasətinə üstünlük verdiyini göstərər, digər tərəfdən də Ermənistana mesaj olar ki, böyüklü-kiçikli, hətta bir-biri ilə gərgin münasibəti olan dövlətlər bölgədə birinci növbədə Azərbaycanla əməkdaşlığa üstünlük verirlər".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Kəlbəcərli girovların erməni diversantla dəyişdirilməsi gündəmdədir

## Əvəz Həsənov: "Hər iki ölkədə seçkilər olduğu üçün vaxt uzanıb"

**2014-cü ilin yayında erməni işğalı altında olan doğma rayonları Kəlbəcərə gedərkən Ermənistan ordusu tərəfindən girov götürülən Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad edilməsi hələ də mümkün olmayıb. 4 ilə yaxındır hər iki girov qanunsuz olaraq Dağlıq Qarabağda Şuşa həbsxanasında işgəncə altında saxlanır. Onların azad edilməsi üçün indiyə qədər bir sıra tanınmış siyasi xadimlər, diplomatlar, peşəkar hərbçilər tərəfindən müxtəlif təkliflər, variantlar səslənib. Daha cəlbedici təklif isə Azərbaycan sərhədlərini pozduğu üçün ələ keçirilən erməni hərbçilərin, hazırda Azərbaycan həbsxanasında saxlanan erməni diversant Arsen Baqdasaryanla dəyişdirilməsi olub.**

Qeyd edək ki, Arsen Baqdasaryan 2014-cü il dekabrın 26-da qoşunların təmas xəttində, Azərbaycan ordusu tərəfindən tutulub.



Məhkəmənin hökmü ilə o, 15 il müddətinə azadlıqdan məhrum edilib. O, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın əmri ilə Azərbaycana qarşı cinayət törətdiyini etiraf edib.

Ermənistan hakimiyyəti bir sıra beynəlxalq təşkilatların, Azərbaycan tərəfinin kəlbəcərli girovlarla bağlı müraciətlərini bütün beynəlxalq konvensiyaları pozaraq qulaqardına vurur. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin də girovlarla bağlı üzərinə düşən işi lazımınca yerinə yetirə bilmədiyi ortadadır. Bu təşkilat girovlar barədə hərdən bir məlumat, onlardan məktub gətirməkdən o tərəfə keçmir. Kəlbəcərli girovların isə sağlıq durumunun yaxşı olmadığı bildirilir.

Bəs Kəlbəcərli girovların Azərbaycanda həbsdə olan erməni diversant Arsen Baqdasaryanla dəyişdirilməsi mümkündürmü?

İtkin Düşmüş Şəxslərin Axtarılrması, Əsir və Girovların Azad Olunması üzrə Beynəlxalq İşçi Qrupun kəlbəcərli girovların işinə hansısa köməyi dəyə bilərmi? Bu məsələ onlarla müzakirə edilibmi?

Qarabağ münaqişəsində İtkin Düşmüş Şəxslərin Axtarılrması, Əsir və Girovların Azad Olunması üzrə Beynəlxalq İşçi Qrupun azərbaycanlı həmsədri Əvəz Həsənov "Yeni Müsavat"a bildirdi ki, Beynəlxalq İşçi Qrup bu məsələ barədə kifayət qədər məlumatlıdır. Girovların dəyişdirilməsi məsələsi ilə bağlı məsələni Beynəlxalq İşçi Qrup Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, həmçinin Ermənistanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Dağlıq Qarabağdakı "komissiya" ilə müzakirə edib. Kifayət qədər məlumat verilib: **"İşçi Qrupun üzvləri keçən il Dağlıq Qarabağa səfər edib onlarla görüşmüşdülər. Məsələ bizim diqqətimizdədir. Sadəcə, hər iki ölkədə seçkilər olduğu üçün vaxt uzanıb".**

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Ata evi"nin himni



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Kremlin "danışan dilləri"ndən olan Vladimir Jirinovski Ermənistanda baş verənləri dövlət çevrilişi adlandırıb. Sərkisyanı devirən ermənilərin daha betər bir hakimiyyət qazanacaqlarını deyib. Onu da bildirib ki, "MDB ölkələrini daxili çaxnaşmalardan yalnız Rusiya xilas edə bilər, bir şərtlə-gərək həmin ölkələr "ata evi"nə geri qayıtsınlar". Ənənəvi mövqeyini təkrarlayaran LDPR sədri əlavə edib ki, Rusiyanın tərkibində təzədən Tiflis, Bakı, İrəvan, Kiyev və Odessa quberniyaları yaradılmalıdır.**

Yəni "korun ürəyindəki" arzu, imperiya arzusu. Əvvəla, Rusiyanın "xilaskar" missiyasındansa, Moskva MDB ölkələrindən barmağını çəksə, onların daxili işlərinə qarışmasa, bu, elə postsovet xalqlarına ən böyük kömək, yaxşılıq olar. Rusiya bunu bacararmı? Krımın ilhaqına görə rusların sevimlisinə çevrilmiş Putin "bulanıq suda balıq tutmaq" siyasətindən imtina edərmi?

Azərbaycanın sabiq xarici işlər naziri, şərhlərini mötəbər saydığımız Tofiq Zülfüqarov da deyir ki, Rusiya regiondan, Ermənistandan çəkilmək istəyir, ona görə ki, işğalçı ölkə Moskva üçün artıq mənasız yükə çevrilib. Gümrüdəki Rusiya bazasını saxlamağın da xüsusi strateji dəyəri qalmayıb. Yəni "xərci borcunu ödəmir". Bir başqa politoloq Ermənistanı Rusiyanın daim daşımalı olduğu "qulpsuz çamadan" adlandırmışdı...

Yük olmağına, əlbəttə, yükdür. Amma Kremlin Ermənistandan - Cənubi Qafqazda özünün yeganə legitim forpostdan imtina eləməsi mümkünmü? Düzü, adamın inanmağı gəlmir. Nəsə bunun əlamətləri gözə dəymir axı. Ermənistanda yaşananlar, yaxud elə Jirinovskinin yuxarıdakı sözləri necə olsun bəs? Hamı bilir ki, o, təkcə öz sözünü demir. Moskva Ermənistandan, imperiya siyasətindən, SSRİ-ni bərpa planından gerçəkdən əl çəkirmi?

Unutmayaq ki, Putin hakimiyyətə gələn kimi SSRİ-ni himnini (musiqisini) Rusiyanın himni kimi təsdiqlətmiş, bununla da SSRİ-ni bərpa etmək planı ilə bağlı postsovet məkanına aydın mesaj yollamış dövlət başçısıdır. SSRİ-nin reanimasiyasına yönəlik Avrasiya layihələri də (Avrasiya İqtisadi Birliyi, Gömrük İttifaqı) məhz Putinin dövründə aktuallıq qazanıb, reallaşmağa başlayıb. Gürcüstanın Abxaziya və Cənubi Osetiya regionlarının (2008), Ukraynaya məxsus Krımın işğalı (2014) onun hakimiyyəti dövrünə təsadüf edir.

Söz düşmüşkən, ara-sıra Azərbaycanın himni məsələsi də gündəmə gətirilir. O gün parlamentdə deputatlardan biri himnin sözlərinə irad bildirib. Bir ara onun musiqisini qısaltmaq təklif edilirdi. Bu günlər o da məlum olub ki, sən demə, müstəqilliyimizin ilk illərində Azərbaycan SSR-nin himnini (onu da dahi Üzeyir Hacıbəyov bəstələyib) müstəqil Azərbaycanın himni kimi qəbul eləmək təklifi varmış. Amma yaxşı ki, təklif keçməyib.

İş ondadır ki, Rusiyanın sovet dövlətinin himnini götürməsi hardasa anlaşılandır. SSRİ-nin himni (musiqi) təkcə sovet dönəminə nostaljini assosiasiya eləmir, eyni zamanda Kremlin Sovet İttifaqını nə vaxtsa reanimasiya edəcəyi barədə postsovet insanında ümid generasiya edir. Yəni bu - bir imperiya himnidir, "ata evi"nə səsləyən çağırışdır.

Bizim Azərbaycan SSR-in himnini götürməyimiz isə SSRİ dönəminə xiffəti rəsmiləşdirməklə yanaşı, imperiyanın bərpası planlarına təbliğati dəstəyimiz, SSRİ-ni görməyən gənc nəslə yanlış bir mesaj olardı. Azərbaycan SSR-i hər hansı formada yaşatmaq isə istiqlal məfkurəsinə ilə də düz gəlmir.

Əlbəttə ki, himnin mətni Quran ayəsi deyil. Ona düzəlişlər mümkündür. Ancaq musiqi... razılaşaq ki, toxunulmaz olmalıdır. Zira, səs sözdən önəmlidir, daha böyük effektə malikdir, psixoloji təsir diapazonu qat-qat genişdir. Bu üzdən rəsmi və qeyri-rəsmi tədbirlərdə çox vaxt himnin musiqisi səslənir, sözlər oxunmur.

Əlbəttə ki, dövlətin gücü onun himninin sözləri və ya musiqisinin möhtəşəmliyi ilə ölçülməz. Öncə iqtisadi-hərbi qüdrəti ilə, regionda və dünyada söz sahibliyi ilə müəyyən edilər. Güclü dövlətin zəif himni belə, möhtəşəm səslənər.

Millət, dövlət olaraq gücümüzü ən əvvəl buna vurmalıyıq, nəinki ikinci, üçüncü dərəcəli məsələlərə...

YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

**Azərbaycanın baş nazirinin keçmiş birinci müavini Abbas Abbasovun oğlu, sabiq deputat Aydın Abbasov başda Orduxan Teymurxan olmaqla, mühacir müxalifət fəallarının atası tərəfindən maliyyələşdirilməsi haqda yayılan informasiyalara cavab olaraq xüsusi bəyanatla çıxış edib.**

# Abbas Abbasovun oğlu bəyanat yaydı

## Tanınmış politoloq Abbas Abbasovu siyasi tövbəyə çağırdı



**Virtualaz.org bildirir ki, Aydın Abbasov atasının barəsində yayılan xəbərlərin doğru olmadığını, Abbas Abbasovun dövlətçiliyə sadiq olduğunu bəyan edib:** “Təhrikçilər və böhtançılar həmişə olub və gələcəkdə də olacaq, onlara zaman özü cavab verəcək. Biz isə millətə, dövlətə və prezident İlham Əliyevə xidmət etməyə davam edəcəyik. Və kim ki, sizə belə məqalələri sifariş edir, qoy öz fikirlərini nizama salsınlar və mənəvi sima əldə etsinlər. Bu, atam haqqında böhtan və yanlış məqalələrə mənim qısa cavabımdır. Ümid edirəm ki, mən öz fikirlərimi əxlaq çərçivəsində çatdıra bildim”.

Qeyd edək ki, son günlər mediada keçmiş deputat Hüseyn Abdullayevin istintaqa ifadəsində Abbasovla əlaqəsinin olduğunu, Avropada yaşayan söyüş söyən məlum şəxslərin maliyyələşməsini həm də baş nazirin keçmiş birinci müavininin olduğunu etiraf etdiyi haqda xəbərlər yayılıb. Xəbərlərdə bildirilir ki, Hüseyn Abdullayevin Türkiyədə həbs edilməsindən sonra Abbas Abbasov Türkiyədən Rusiyaya gedib. Abbas Abbasovun oğlu Aydın Abbasovun isə Türkiyədə olduğu deyilir.

Bəs Aydın Abbasovun bəyanatındakı fikirləri səmimi qəbul etmək olarmı?

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Aydın Abbasovun fikirlərində səmimi olması arzuedilləndir. Çox yaxşı olardı ki, o, Azərbaycan dövlətçiliyinə həm özünün, həm atasının sadiq olması ilə bağlı ortaya tutarlı faktlar qoya bilsin:** “Bəli, Abbas Abbasov vaxtilə Azərbaycan hökumətində kifayət qədər yüksək vəzifədə çalışıb. Mərhum Heydər Əliyevin dövründə baş nazirin birinci müavini, bir müddət isə İlham Əliyev iqtidarında baş nazirin birinci müavini vəzifəsində işləyib. Həmin dövrlərdə Abbas Abbasov başını aşağı salıb öz işi ilə məşğul idi, Rusiya ilə əlaqələrin qurulmasında müəyyən rol oynayıb. Çünki o, Rusiya ilə əlaqələri sıx olan məmurlar kateqoriyasına daxil idi. O dövrlərdə onun dövlətçiliyə xeyir verdiyi qənaətində idim. Amma Abbas Abbasov vəzifədən çıxarıldıqdan və Moskvaya getdikdən sonra onun fəaliyyəti ilə bağlı o qədər də xoş olmayan söhbətlər gəzməyə başladı. Əsas da Azərbaycanın Rusiyadakı diaspora təşkilatını parçalamaq, onu özünün şəxsi məqsədlərinə tabe etdirmək istiqamətində fəaliyyət göstərməsi barədə məlumatlar alınmağa başladı. Mənim zənnimcə, əgər xidmətdən söhbət gedirsə, Abbas Abbasov kimi təcrübəli bir adam öz diqqətini Azərbaycan diasporasının Rusiyada daha da güclənməsinə, monolitləşməsinə, Azərbaycanın üzləşdiyi problemlərlə bağlı məsələlərin Rusiya siyasi hakimiyyət orqanları qarşısında qaldırılmasına yönəltməliydi. İndi deyə bilərlər ki, o, bu istiqamətdə hansısa işləri görüb. Amma əslində alınan xəbərlər göstərirdi ki, o, ”Azər-Ros"da Söyün Sadıqovla əvvəl bir yerdə oldu, sonra ayrıldılar və nəticə etibarilə bu təşkilat parçalandı və dağıldı. Ümumrusiya Azərbaycanlıları Konqresinin fəaliyyətinə də müdaxilə etməyə başladı. Halbuki həmin təşkilatı qurmaq üçün mərhum prezident Heydər Əliyev çox böyük əmək sərf eləmişdi. Hətta Heydər Əliyev Moskvadakı MDB sammitlərinin birində iştirak edərkən ÜAK-ın təsis qurultayını da həmin vaxta saldırmışdı və Vladimir Putini dəvət edib təsis qurultayına apara bilmişdi. Lakin sonradan bu təşkilata rəhbərlik uğrunda mübarizə aparan qruplaşmaların olduğunu və onların Abbas Abbasov tərəfindən yönləndirilməsi haqqında məlumatlar alınmağa başlandı. Sonda da Rusiya Ədliyyə Nazirliyi ÜAK-ın bağlanması haqqında qərar verdi".

**Politoloq hesab edir ki, əgər Abbas Abbasov doğrudan da xalqına, dövlətinə xidmət etmək istəyirdisə, Rusiyada olan əlaqələrindən istifadə edib həmin təşkilatın qapadılmasının qarşısını almaq üçün səylər göstərə bilərdi:** “Çox təəssüflər olsun ki, bu olmadı. İndi Aydın Abbasov atasının adından gileylənir, bildirir ki, onlar dövlətçiliyə sadiqdirlər və İlham Əliyevin kursunu müdafiə edirlər. Mən bu bəyanatın səmimi olmasını çox ürəkdən istərdim. Hətta Abbasovların Azərbaycana gəlib burada fəaliyyət göstərməsini istərdim ki, gözdən-könüldən iraqda olmasınlar. Abbas Abbasov ixtiyar yaşda olan adamdır. Belə yaşda adam istirahət etməlidir, daha çox öz şəxsi həyatı ilə məşğul olmalıdır. Amma o, Türkiyə-Rusiya arasında tez-tez gedib gəlməklə, zənnimcə, müəyyən təəssüratlar yaradıb. Hüseyn Abdullayev Türkiyədə tutulduqdan az sonra Türkiyəni tələsik tərk etməsi də Hüseyn Abdullayevin istintaqa onun haqqında dediklərini təsdiq edir. Bizim bir vətənimiz var, o da Azərbaycandır. Abbas Abbasov özünə də, oğluna da, ətrafındakı şəxslərə də müraciət edirəm ki, gəlin bu vətənimizi qoruyaq, bu vətənin ətrafında doğrudan da səmimi birləşək. Hər şeyi siyasi ambisiyalara qurban vermək lazım deyil. Abbas Abbasovun siyasi ambisiyaları haqqında məlumatlar alarkən mən də təəssüf etdim ki, o, hələ də köhnə ambisiyalardan əl çəkməyib. Mən Abbas Abbasovu bir siyasi tövbəyə çağırıram”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Əfv mayın 10-da olmaya bilər- komissiya işləri yekunlaşdıra bilmir





**Məlahət İbrahimqızı:** “Cənab prezident yaxın vaxtlarda insanları bir daha sevindirəcək”
**Mirvari Qəhrəmanlı:** “Mayın 28-nə qədər əfv və amnistiya ola bilər”

**May ayının əfv və amnistiya ayı olacağı barədə xəbərlər durmadan artır. Bu ayda Azərbaycanda minlərlə məhbusu əhatə edəcək iki mühüm qərarın 10 mayda mərhum prezident Heydər Əliyevin anadan olmasının 95 və ya 28 mayda Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə bağlı veriləcəyinə ümidlər yüksəkdir.**

Əfv Komissiyasının iclaslarının intensivləşməsi, eləcə də ombudsman Elmira Süleymanovanın Milli Məclisdə amnistiya təşəbbüsü ilə çıxış etməsi həm əfvin, həm də amnistiyanın olacağına inamı artırır.

Bütün bunlarla yanaşı, 10 mayla bağlı bir ümidsizlik də yaranıb. Belə ki, bu tarixə bir həftədən az müddət qalır. Lakin əfvin verilib-verilməyəcəyi barədə gedən məlumatlar səngiyib. Əfv Komissiyası iclaslarını davam etdirir, prezidentə hələ də yekun siyahılar göndərilməyib. Lakin istənilən halda mayın sonuna qədər əfv və amnistiyanın olacağı bildirilir.

**Əfv Komissiyasının üzvü, deputat Məlahət İbrahimqızı “Yeni Müsavat”a açıqlamasında yaranan müəmmalara bu cür münasibət sərgilədi:** “Uzun illərdir ölkəmizdə əfv sərəncamı verilir, amnistiya aktı qəbul edilir. Yəni burada yeni bir şey yoxdur. Uzun illərdir hər iki qərarın verilməsi bunların sonunda bir humanizmin dayandığını göstərir. İnsanlar müxtəlif dərəcəli cinayətlər törədirlər və cəzalarını alırlar. Sonradan əfv olunmaq üçün müraciət edirlər. İnsanlar bir Allahdan, bir də təbii ki, ölkə rəhbərindən əfv olunmasını xahiş edirlər. Prezident seçildiyi 2003-cü ildən etibarən ölkə başçımız İlham Əliyev bu humanizm siyasətini davam etdirir. Dünyada ən şirin şey cansağlığı və azadlıqdır. Quşu belə qəfəsə salanda hansı hala düşdüyü məlumdur. Əfv Komissiyasının nizamnaməsində göstərildiyi kimi, bu komissiya daimidir. İş daimi davam edir. Əfv müraciəti fərdidir. Bir insan əfv müraciəti etmədən necə bağışlana bilər? Adicə birinin ayağını tapdalayanda belə bağışlayın deyirik. Məhkum müraciət edir, əfv olunmasını xahiş edir, törətdiyi cinayətdən peşmançılığını bildirir, kimə zərər vurursa, onu ödəməlidir. Məhbusun törətdiyi cinayətin dərəcəsi, çəkdiyi cəzanın müddəti nəzərə alınır. Bütün məsələlər ciddi şəkildə müzakirə edilir, sonunda qərar verilir. Amnistiya aktı maddələr üzrədir. Burada müraciət olmur. Yəni əfv və amnistiyanın bir-birinə aidiyyəti yoxdur. 2017-ci ilin fevralında cənab prezident cəzaların humanistləşdirilməsi barədə sərəncam imzalayıb. Bu, böyük bir rezonans doğurdu, beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirildi. Möhtərəm birinci vitse-prezidentimiz Mehriban xanım millət vəkili olarkən iki dəfə amnistiya təşəbbüsü ilə çıxış etdi. Nəticədə qəbul edilən amnistiyaların biri ilə eyni zamanda əfv sərəncamı da imzalanmışdı. Məhbuslar fikirləşməsinlər ki, bayram, yaxud əlamətdar bir tarixi gün olmadan azadlığa çıxa bilməzlər. İlin 12 ayında bir-birindən əziz günlərimiz çoxdur. Bu günlərdə cənab prezident insanlara xeyirxahlıq etməyə daha çox üstünlük verir. Əfv Komissiyasının hazırda işi gedir, yüzlərlə müraciətə baxılıb, bu, davam edəcək. Möhtərəm prezidentimizin konstitusion hüququ olduğundan əfvin nə zaman veriləcəyini deyə bilmərik, buna heç ixtiyarımız da yoxdur. Komissiyanın işi yekunlaşandan sonra cənab prezident bir daha humanist addımlarını atacaq. Sonuncu dəfə komissiyanın iclasının nə zaman olmasının bir önəmi yoxdur. Çünki komissiya daimi fəaliyyət göstərir. Komissiyanın iclasları barədə tez-tez məlumat verilməsi əslində düzgün olmazdı. Çünki müraciət edənlər gərgin vəziyyətdə olurlar ki, görəsən, mənim müraciətimə baxıldımı. Bu da komissiya üzvlərinin işini çətinləşdirir. Onlara edilən müraciətlərin sayı durmadan artır. Komissiyanın işləri yekunlaşandan sonra bütün sənədlər prezidentə göndəriləcək. Hər zaman olduğu kimi cənab prezident yaxın vaxtlarda insanları bir daha sevindirəcək”.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı 10 mayla bağlı hələ də ümidlidir:** “Məndə olan məlumata görə, mayın 28-nə qədər əfv və amnistiya ola bilər. Əfvin olma ehtimalları daha yüksək görünür. Bir sıra maddələr var ki, amnistiyaya düşmür. Buna görə həm amnistiya, həm də əfv ola bilər. 10 və 28 may arasında 18 gün var, bu müddətdə hər iki qərarın verilməsi mümkündür”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

# General Əlixanovu bitirən qaçış

## 65 yaşı mayın 1-də tamam olan Penitensiar Xidmətin rəis müavini Hüseyn Əlixanovun dərhal təqaüdə göndərilməsinin gerçək səbəbləri; qaçan dustaqlara görə təkcə həbsdə olan bacısı oğlunun deyil, özünün də məsuliyyəti vardı...

**Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəis müavini, ədliyyə general-mayoru Hüseyn Əlixanov vəzifəsindən azad edilib. Penitensiar Xidmətdən modern.az-a faktı təsdiqləyiblər. Generalın 65 yaşı tamam olduğu üçün təqaüdə göndərildiyi bildirilib. Maraqlıdır ki, H.Əlixanovun təqaüd yaşı mayın 1-də tamam olub... Yəni general dərhal işdən uzaqlaşdırılıb... Məsələ ilə bağlı unikal.org-a açıqlamasında Hüseyn Əlixanov işdən getməsini təsdiqləyib: "Mən işləmirəm artıq, təqaüdə çıxmışam. Hələ ki yerimə təyinat yoxdur".**




H.Əlixanovun hər hansı bir adla işdən çıxarılacağı hələ ötən ilin oktyabrından gözlənilirdi. Ötən ilin oktyabr ayının 23-də Bakı-Astara-Bakı qatarında xüsusi təyinatlı vaqonda Bakı şəhərinə müşayiət olunan 1980-ci il təvəllüdlü, əvvəllər məhkum edilmiş, CM-in müxtəlif maddələri ilə təqsirləndirilən "Qoca" ləqəbi ilə tanınan Etibar Məmmədov və 1989-cu il təvəllüdlü, CM-in müxtəlif maddələri ilə təqsirləndirilən "Abdulla" ləqəbli Əli Ağami qaçmışdı. E.Məmmədovun saxlanılması üçün keçirilən əməliyyat zamanı silahlı müqavimət göstərdiyi üçün öldürülərək zərərsizləşdirildi. Ə.Ağami isə Şirvan şəhərində saxlanıldı və bu işə görə də cəzası ağırlaşdırıldı.

Faktla bağlı dərhal Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 304.2-ci (azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçma) və 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlandı. Bunun ardınca isə həbslər başladı.

Əvvəl tanınmış müğənni Fədayə Məmmədova (Laçın) təqsirləndirilən şəxs qismində istintaq cəlb olunaraq, barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçildi. Onun barəsində Cinayət Məcəlləsinin 304.2.1-ci (mühafizə altında olan şəxsə qaçmağa yardım etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanıldı və bu iş üzrə istintaq hələ də davam etdirilir.

Ən maraqlı hadisələr isə bundan sonra baş verdi. Baş Prokurorluqda faktla bağlı başladılmış istintaq Penitensiar Xidmətin üç əməkdaşının saxlanmasına səbəb oldu. Qarovul rəisi Ceyhun Səmədov, qarovul rəisinin müavini Fuad Hacıyev və qarovul rəisinin digər müavini Tural Poladxanov saxlanılaraq istintaqa cəlb edildilər. Həmçinin Penitensiar Xidmətin Konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayevin barəsində həbs-qətimkan tədbiri seçildi. Qarovul rəisi Ceyhun Səmədovun Hüseyn Əlixanovun bacısı oğlu olması faktı üzə çıxdıqdan sonra generalın taleyi demək olar ki, həll olundu. Üstəlik, həbsxanalara əsas nəzarət funksiyasının da H.Əlixanovun kurasiyasında olması onun işini itirəcəyinə şübhə yeri qoymurdu. "Yeni Müsavat"ın həmin günlərdə yazdığından (http://musavat.com/news/qacan-dustaqlarin-isi-generali-bitire-biler-sok-acar-fiqur_477926.html) bir sitatı yada salaq: **"Mümkündür ki, bu cinayət işində əsas fiqurun RX rəis müavininin ən yaxın qohumu olması generalın da karyerasına ciddi təhlükə olsun. Hələ bir çox gizli məqamların dustaqların həbsindən sonra üzə çıxacağı gözlənilir ki, bu da onların hökmündən əvvəl yüksək vəzifəli bəzi şəxslərə hökm (cəza) veriləcəyi etimalını gücləndirir".**

H.Əlixanovu həmin vaxt işdən çıxarmadılar, görünür, xidmətlərinə görə onun karyerasını bu cür ağır ittihamla bitirmək istəmədilər. Ölkədə ciddi rezonans doğuran bu hadisəyə görə Penitensiar Xidmətin əməkdaşları - Elvin Namazov, İlkin Emilov, Vüsal Məmmədov, Təhran Musayev və daha 4 nəfər işdən qovuldu. Bundan başqa, generalın bacısı oğlu da daxil olmaqla, qarovul rəisinin müavini Fuad Hacıyev və qarovul rəisinin digər müavini Tural Poladxanov ədliyyə orqanlarından xaric edildi.

Qeyd edək ki, bu ilin fevralında isə Nəsimi Rayon Məhkəməsində hakim Şəlalə Həsənovanın sədrliyi ilə keçirilən prosesdə saxlanılan şəxslərin həbs müddəti daha 3 ay artırılıb. İstintaqın nə vaxt bitəcəyi isə bilinmir.

Hüseynağa Əlixanov (Vikipediya məlumatlarında adı belə yazılır) 1 may 1953-cü il tarixdə Quba rayonunun Yerfi kəndində anadan olub. 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Hüquq-mühafizə orqanlarında əmək fəaliyyətinə 1981-ci ildən başlayıb. Bakı Şəhər Prokurorluğunun baş müstəntiqi, Gəncə şəhər prokuroru, Bakı Şəhər Prokurorluğunun daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsinin rəisi, Bakı şəhər prokurorunun birinci müavini vəzifələrində işləyib. Bakı şəhər prokuroru vəzifəsini icra edib, Baş Prokurorluğun Prokurorluq orqanlarında istintaqa nəzarət idarəsinin rəisi, Bakı şəhər Nizami rayon prokuroru vəzifələrində işləyib.

H.Əlixanov 2004-cü ildən ədliyyə orqanlarına xidmətə keçirilərək Ədliyyə Nazirliyinin Məhkəmə İcraçıları Baş İdarəsinin rəisi təyin edilib. 2007-ci ildən Penitensiar Xidmətin rəis müavini idi.

❑ **"Yeni Müsavat"**

# Eldar Mahmudov özünə vəkil tutdu

## İntihar edən polkovnikin qardaşı sabiq nazirdən əl çəkmək fikrində deyil; MTN generalı məhkəmədən yayınsa da, vəkillə müqavilə imzaladı

**İntihar edən polkovnikin qardaşı Eldar Mahmudovu məhkəməyə verib. O, qanunsuz olaraq həbs edildiyinə görə Mahmudovdan 100 min tələb edir. Musavat.com xəbər verir ki, Yasamal Rayon Məhkəməsində "MTN işi"ndə zərərçəkmiş qismində tanınan Mətləb Mustafayevin keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudova qarşı iddiası əsasında məhkəmə başlayıb.**



Xatırladaq ki, "MTN işi"ndə zərərçəkmiş qismində tanınan Mətləb Mustafayev keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovu və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin rəisi vəzifəsində çalışmış Mövlan Şıxəliyevi məhkəməyə verib.

Hakim Sərdar Mehrəliyevin sədrliyi ilə keçirilən prosesə E.Mahmudov gəlməyib. Lakin onun vəkillə müqavilə imzaladığı bəlli olub. Məhkəmədə keçmiş nazir Eldar Mahmudovu vəkil Cavid Rzazadə təmsil edib.

İşə əlavə cavabdeh kimi cəlb edilən Maliyyə Nazirliyinin nümayəndəsi prosesdə iştirak etməyib. Zərərçəkmiş M. Mustafayev çıxış edərək bildirib ki, E.Mahmudova sualları var: "Həmin suallara vəkil cavab verə bilməz. Ona görə də Eldar Mahmudovun prosesdə iştirakını təmin etməyinizi xahiş edirəm".

C.Rzazadə bildirib ki, artıq Mülki Prosessual Məcəllənin 144-cü maddəsi ləğv edildiyi üçün cavabdehin məcburi gətirilməsinə ehtiyac yoxdur.

Hakim M. Mustafayevin vəsatətini təmin etməyib və E.Mahmudovun məhkəməyə gətirilməsinin zəruri olmadığını bildirib.

Daha sonra vəkil Rzazadə vəsatət verərək proses zamanı əməliyyat məlumatlarının müzakirə ediləcəyini bildirib və zalda jurnalistlərin iştirak etdiyini vurğulayıb. M.Mustafayev isə prosesin açıq olduğunu deyib.

Vəkil qeyd edib ki, M. Mustafayev iddia ərizəsində Maliyyə Nazirliyini cavabdeh şəxs kimi qoysa da, onlardan tələbinin nə olduğunu bildirməyib.

Ardınca M. Mustafayev iddia ərizəsinə dəqiqləşdirmə verib. Əsas cavabdeh kimi Maliyyə Nazirliyini göstərib, E.Mahmudov isə əlavə cavabdeh kimi işə cəlb edilib. M. Mustafayev tələb etdiyi pulun Maliyyə Nazirliyindən tutulmasını, nazirliyin isə pulu Eldar Mahmudovdan alıb ona ödəməsini istəyib.

İddiaçı nazirliyin Nəsimi rayonu ərazisində yerləşdiyini əsas gətirərək işin Nəsimi Rayon Məhkəməsinə göndərilməsini istəyib. M. Mustafayevin vəsatəti təmin edilib və iş baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib.

Yasamal Rayon Məhkəməsində iddia qaldıran M.Mustafayev sabiq nazirin sifarişi ilə şərlənərək həbs edildiyini yazıb və E.Mahmudovun ona 100 min manatdan çox pul təzminatı ödəməsini tələb edir.

M.Mustafayev M.Şıxəliyevə qarşı qaldırdığı iddia ərizəsini isə Səbayel Rayon Məhkəməsinə göndərib. O, iddia ərizəsində şərlənərək həbs edilməsindən sonra barəsində olan cinayət işi üzrə istintaqın M.Şıxəliyevin rəhbərlik etdiyi idarədə aparıldığını bildirib. M.Mustafayev sabiq idarə rəisindən 63 min manat təzminat tutularaq ona ödənilməsini istəyib.

Bu iddia ərizəsi üzrə hazırlıq iclası mayın 1-nə təyin olunub. İşə hakim Nurəddin Bağırovun sədrliyi ilə baxılacaq.

Bundan başqa, M.Mustafayev hər iki iddia ərizəsində Maliyyə Nazirliyini də cavabdeh kimi göstərib. O, buna səbəb kimi isə həm E.Mahmudov, həm də M.Şıxəliyevin vaxtilə dövlət orqanlarında rəhbər şəxs olmalarını qeyd edib.

Xatırladaq ki, M.Mustafayev əvvəllər Dövlət Əmlak Komitəsində müxtəlif vəzifələrdə, həmçinin 2014-cü ilədək "Azərsu" ASC-də iqtisadçı işləyib. O, 2014-cü ilin sentyabrında MTN-in keçirdiyi əməliyyat nəticəsində həbs edilib. M.Mustafayev Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah saxlama) maddəsi ilə ittiham edilib və 2015-ci il aprelin 24-də Nəsimi Rayon Məhkəməsinin hökmü ilə 2 il müddətinə azadlıqdan məhrum olunub. Bakı Apelyasiya Məhkəməsi isə hökmü qüvvədə saxlayıb. Ali Məhkəmə isə Bakı Apelyasiya Məhkəməsinin qərarını ləğv edib. Bundan sonra Bakı Apelyasiya Məhkəməsi M.Mustafayevin işinə yenidən baxaraq onun barəsində bəraət hökmü çıxarıb.

Mətləb Mustafayev MTN-də 31 il xidmət etmiş polkovnik Malik Mustafayevin qardaşıdır.

Cinayət işi materiallarında yazılır ki, MTN Mətləb Mustafayevdən vəzifəli şəxslər barəsində məlumatlar tələb edib. Mətləb Mustafayev bununla razılaşmadığı zaman onun qardaşı Malik Mustafayevə də təzyiqlər başlayıb.

Mətləb Mustafayev MTN-in tələbi ilə razılaşmadığı üçün şərlənərək həbs edildiyini deyir. Polkovnik Malik Mustafayev isə qardaşının həbsindən bir neçə gün sonra özünü asaraq intihar edib.

Qeyd edək ki, M.Mustafayev MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev və Azər Mehdiyevin cinayət işində zərəçəkmiş qismində tanınır.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə E.Quliyev 10 il 6 ay, A.Mehdiyev isə 8 il azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi də hökmü qüvvədə saxlayıb.

❑ **İlkin MURADOV, "Yeni Müsavat"**

# İpoteka ilə bağlı yeni fərman təqdir edilir

**Prezident İlham Əliyev mayın 2-də ipoteka kreditləşməsi ilə bağlı iki fərman imzalayıb. Sənədlərdə "Azərbaycan İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" və "Azərbaycanda ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" fərmanlara dəyişikliklər edilməsi nəzərdə tutulur.**



## Rəşad Həsənov: "İpoteka kreditləşməsi səviyyəsi Azərbaycanda tələbatdan xeyli dərəcədə aşağıdır"

Dəyişikliklər ipoteka kreditinin restrukturizasiyası, kreditlərin verilmə mexanizmi, habelə zəmanətə verilən kreditlərin məbləği və texniki məsələlərlə bağlıdır. Qeyd edək ki, restrukturizasiya kreditin qaytarılma şərtlərinin dəyişdirilməsidir.

Dəyişikliyə görə, kredit, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına və ya qabaqcadan qeydiyyata alınmış yaşayış sahələri ilə yanaşı, Mülki Məcəlləyə uyğun olaraq barəsində təminat qeydi aparılmış tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payın alınmasına da veriləcək. Belə kreditlərin verilməsi bu il iyulun 1-dən mümkün olacaq.

Bundan başqa, ipoteka kreditlərinin ödənilməsi qaydalarına da dəyişikliklər edilib. Belə ki, indiyədək ipoteka krediti üzrə ödənilən aylıq məbləğ borcalanın aylıq gəlirinin 70 faizindən çox ola bilməzdi. Bundan sonra ilkin mənzil bazarından əmlak alanlar 40 faizdən artıq ilkin ödəniş edərlərsə, aylıq ödəniş məbləğinə limit tələbi olmayacaq.

Mayın 1-də isə prezident "İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" fərman imzalayıb. Fərmanla "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən ipoteka kreditləri üzrə təminat verilməsi Qaydası" təsdiqlənib.

Bundan əlavə, İpoteka və Kredit Zəmanət Fondunun nizamnaməsinə edilən dəyişikliyə əsasən, fonda yaşayış sahələrini almaq və satmaq öhdəliyi ilə kirayəyə vermək hüququ verilib.

Eyni zamanda Nazirlər Kabinetinə bir ay ərzində İpoteka və Kredit Zəmanət Fondunun vergi öhdəliklərindən azad edilməsi, habelə bu fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş qaydaya uyğun olaraq, fond tərəfindən təminat üzrə ödəniş edilməsi hallarında borcalanların və müvəkkil bankların vergi öhdəliklərindən azad edilməsi ilə bağlı qanun layihəsini hazırlayıb prezidentinə təqdim etmək tapşırılıb.

**Əmlak Bazarı İştirakçıları İctimai Birliyinin rəhbəri Ramil Osmanlı hesab edir ki, dəyişikliklər İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin genişləndirilməsi və daha da təkmilləşdirilməsinə xidmət edir:** "Son dəyişikliklərdə iki mühüm məsələ diqqəti cəlb edir. Bunlardan biri mənzillərin, yaşayış sahələrinin alınaraq sonradan satılmaq şərtilə kirayə verilməsidir. Beynəlxalq praktikada bu üsuldan istifadə edilir. Bir çox ölkələrdə kirayə götürənlə bağlanan müqavilədə mənzilin 3 ildən sonra satılması məsələsi əksini tapır. Azərbaycanda bu kimi məsələlərin hazırlanacaq qaydalarda necə əksini tapacağını indidən söyləmək mümkün deyil. Bilmək olmur ki, beynəlxalq praktikadan necə yararlanılacaq. Dəyişiklərdə diqqəti cəlb edən digər məsələ vergidən azadolmalarla bağlıdır. Burada hansı vergi öhdəliklərindən bəhs olunduğu hələ bilinmir. Yəqin ki, bu barədə qaydalar hazır olandan sonra konkret fikir yürütmək mümkündür".

**R.Osmanlının fikrincə, fondun fəaliyyəti bir qədər də təkmilləşəndən sonra Müşahidə Şurası faiz dərəcələri ilə bağlı dəyişikliklər edəcək:** "Çünki 2007-ci ildən bəri tətbiq olunan faiz dərəcələri dəyişməyib, amma bazarda qiymətlər iki dəfədən çox dəyişib. İpoteka kreditinin maksimal məbləği, orta aylıq əmək haqqı, minimum istehlak səbətinin dəyəri dəyişib. Bütün bunlar faiz dərəcələrinin də dəyişməsini zəruri edir".

**İqtisadçı-ekspert Rəşad Həsənov isə deyir ki, beynəlxalq praktikada kreditlərə zəmanət təcrübəsinin 150 il yaşı var:** "Azərbaycanın beynəlxalq reytinqlərdə mövqelərini pisləşdirən əsas göstəricilərdən biri də kreditlərə çıxış imkanlarının məhdudluğudur. Kredit Zəmanət Fondunun, ümumilikdə bu mexanizmin yaradılması bütövlükdə ölkədə kreditə çıxış imkanlarını genişləndirmək, həmçinin beynəlxalq reytinqlərdə mövqeləri yaxşılaşdırmaq baxımından müsbət addımdır. Düzdür, bizim burada razılaşmadığımız məqamlar var. Məsələn, hesab edirik ki, zəmanət verilən kreditlərin minimum məbləği çox yüksək götürülüb. Bu, iri sahibkarlar üçün əlverişli olan şərtdir. Halbuki bu gün ölkədə daha çox xırda və orta sahibkarların maliyyə resurslarına əlçatanlığı problemi var. Bu şərtlərlə xırda və orta sahibkar məcburdur ki, irihəcmli borclanmaya getsin ki, aldığı kreditə zəmanət verilsin. Buna görə də zəmanət verilən kreditlərin minimum məbləğinin aşağı salınmasına ehtiyac var".

**Ekspert ipoteka kreditləri üçün də təminat mexanizminin formalaşmasını təqdirəlayiq hesab edir:** "İpoteka kreditləşməsi səviyyəsi Azərbaycanda tələbatdan xeyli dərəcədə aşağıdır. Təminat və zəmanət mexanizminin olmaması, risklərin yüksək olması nəticəsində bazarda qeyri-dövlət subyektlərinin ipoteka kreditləşməsində iştirakçılığını zəiflədirdi. İpoteka kreditləşməsinə zəmanət mexanizminin yaradılması nəticəsində fond əlavə vəsait cəlb etmədən, sadəcə, zəmanətvermə mexanizmini tətbiq etməklə bankların ipoteka prosesində daha aktiv iştirakını təşviq edəcək. Bu, eyni zamanda bazarda rəqabəti artırmaqla ipoteka faizlərinin aşağı düşməsini stimullaşdıra bilər. İkinci mühüm məsələ fond və borcalanların vergidən azad olunmasıdır. Konkret məqamlar məlum olmasa belə, borcalanların xərc yükünün azalması ümumi ipoteka xərclərinin azalmasına gətirib çıxaracaq. Bu da ümumilikdə ipoteka kreditləşməsi imkanlarını artıracaq".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Yollar yenə can alır: ölümlərin artmasının səbəbləri...



## Ekspert: "Səbəblər kompleks xarakterlidir və onların araşdırılmasına ehtiyac var"

**Bu ilin ilk üç ayında yol qəzalarında ölənlərin sayı kəskin artıb, 162 nəfər yollarda dünyasını dəyişib. Dövlət Statistika Komitəsindən APA-ya verilən məlumata görə, 2018-ci ilin yanvar-mart aylarında ölkənin avtomobil yollarında 376 yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,9 faiz azalaraq 505 nəfər olub. Onlardan 162 nəfəri ölüb, 343-ü isə xəsarət alıb. Hadisələrin 35,1 faizi gündüz, 37,2 faizi gecə, 27,7 faizi isə toran vaxtı baş verib, 26,3 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.**

Yol-nəqliyyat hadisələrinin 91,8 faizi yaşayış məntəqələrində baş verib, bu hadisələr nəticəsində ölənlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 14,3 faiz artaraq 136 nəfər, xəsarət alanların sayı isə 15,0 faiz azalaraq 328 nəfər olub.

Bütün yol-nəqliyyat hadisələrinin 53,2 faizi nəqliyyat vasitələrinin və piyadaların, 31,1 faizi bir neçə nəqliyyat vasitəsinin, 15,7 faizi bir nəqliyyat vasitəsinin iştirakı ilə baş verib.

Yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin 80,9 faizini, xəsarət alanların isə 79,0 faizini kişilər təşkil edib.

Qeyd edək ki, yol hərəkəti qaydaları əleyhinə aşkarlanmış inzibati xətaların sayı 5,1 faiz artaraq 786,2 min olub. Qaydaların pozulmasına görə 14,2 milyon manat məbləğində cərimələr tətbiq edilib.

Bəs görəsən, yol qəzalarının ölüm hallarının, əsasən də piyadaların iştirakı ilə baş verən qəzaların günü-gündən artmasının səbəbi nədir?

**"Yeni Müsavat"a açıqlamasında problemin səbəblərindən danışan nəqliyyat eksperti Ərşad Hüseynov bildirdi ki, burada sürücülərin qeyri-peşəkarlığı, piyada məsuliyyətsizliyi, yollardakı problemlər, nəqliyyat vasitələrinin saz vəziyyətdə olmaması və digər faktorlar rol oynayır:** "Bu açıqlananlar yalnız statistik rəqəmlərdir. Bu rəqəmlər isə çox az məlumat verir. Əslində təhlil aparılmalı, hər bir hadisə fərdi olaraq araşdırılmalıdır. Yalnız o zaman nə isə demək olar. Statistikanın ötən illə müqayisədə 14-15 faiz yüksək olması hələ nə isə ifadə etmir. Səbəblər çoxşaxəlidir, bir səbəbin üzərində dayanmaq olmaz. Qəzalara yol açan faktorları sıralasaq, ardıcıllıq belə olar: sürücülərin qeyri-peşəkarlığı, piyadaların yüksək intizamsızlığı, yol infrastrukturundakı problemlər, yol örtüyünün vəziyyəti, yol nişanları ilə təchizat, işıqforların quraşdırılması və süni işıqlandırmadakı problemlər, həmçinin nəqliyyat vasitələrinin vəziyyəti. Nəqliyyat vasitələrinin vəziyyəti bu məsələdə çox ciddi rol oynayır. Səsləndirərkən insanlara bir qədər sadə görünə bilər, lakin təkcə avtomobil işıqlarının düzgün tənzimlənməməsi piyada ölümünə yol aça bilər. Bir kazus götürək: məsələn, yolda süni işıqlandırma yoxdur, sürücü qeyri-peşəkardır, avtomobilin işıqları düzgün tənzimlənməyib və qarşıdan gələn sürücünün gözünə düşür, onun yolu görməsinə mane olur. Bu zaman digər sürücünün qarşısına bir intizamsız piyada çıxır və qəza qaçılmaz olur. Sürücü ya piyadanı görmür, ya da görəndə artıq gec olur. Qeyd etdiyim bir neçə səbəb təsadüfən üst-üstə düşdü və piyada öldü. Bu cür təsadüflər isə tez-tez baş verir. Səbəblər kompleks xarakterlidir".

**Ekspert onu da vurğuladı ki, qəzaların səbəbləri ilə bağlı araşdırma aparılmalıdır:** "Bunun üçün isə velosipedi yenidən icad etməyə ehtiyac yoxdur. Birləşmiş Millətlər Təşkilatının 2006-cı ildən bəri bütün dünya dövlətləri ilə bağlı yol hərəkətinin təhlükəsizliyi haqda tövsiyələri var. Orada israrla tövsiyə olunur ki, xüsusi proqram hazırlayın və həmin proqram çərçivəsində ölkənizin yollarındakı problemləri aşkarlayın. Tövsiyələrdə o da qeyd olunur ki, əsas problemləriniz bunlar olacaq və onu bu yollarla aradan qaldıra bilərsiniz. Ancaq təəssüf ki, bizdə nə proqram var, nə də elmi əsaslandırması olan, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə söykənən mübarizə tədbirləri var".

**Ə.Hüseynov yolların işıqlandırılması ilə bağlı standartlara da toxunaraq, bu sahədə ciddi problemlərin olduğunu qeyd etdi:** "Küçə işıqları gur ola bilməz, bu özü də sürücünün yolu görməsini pisləşdirir. Avtomobillərin hərəkət etdiyi yolların işıqlandırılması üçün bir standart var. Həmin işıq dirəyin altına vurmalıdır, qabağa vurmamalıdır. Sürücülərin gözünə düşməsin deyə çox güclü olmamalıdır. Ancaq bəzi yollarda işıqlar, ümumiyyətlə, yalandan közərir. İşıqlandırma ilə bağlı əvvəlki illərdəki problemlər qalır, işıqlandırmanın olmadığı küçələrdə vəziyyət bir qədər də pisləşib. Bəzi dirəklər avtomobil qəzaları zamanı vurulub aşıb. Bəzilərinin lampası yanıb və dəyişdirilməyib. Bu sahədə yaxşılaşma yoxdur".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Ziya Məmmədovun oğlu 25 milyona Böyük Britaniya vətəndaşlığı alıb

## Məmmədov klanı Azərbaycandakı iqtisadi sferadan da tam çəkilir

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun Böyük Britaniya vətəndaşlığı alması haqda xəbərlər təsdiqlənməkdədir. Gələn məlumatlara görə, Anar Məmmədov bir neçə il öncə Böyük Britaniya vətəndaşlığı alıb. Lakin bu haqda məlumatları gizli saxlayıb.**

Sabiq nazir oğlunun illər öncədən atasının taladığı dövlət vəsaitlərini xaricdəki hesablara, bir çox Avropa dövlətləri ilə yanaşı Böyük Britaniyada mal-mülklərə transfer edib.



Böyük Britaniya o dövlətlərdəndir ki, pulunu verib vətəndaşlığını ala bilərsən. Amma digər Avropa dövlətlərindən fərqli olaraq, Böyük Britaniya vətəndaşı olmaq istəyənlər ciblərini, bank hesablarını bir qədər gen açmalıdırlar. Yəni bu ölkənin vətəndaşlığını almaq o qədər "ucuz" deyil. Böyük Britaniyada vətəndaşlığını almaq üçün "cəmi" 1 milyon funt ödəmək lazımdır. İnvestor 750 min funtdan az olmayan bir məbləği Britaniya iqtisadiyyatına, eyni zamanda 250 min funtdan az olmayan məbləği isə Birləşmiş Krallıq ərazisində daşınmaz əmlaka yatırmalıdır. Və yaxud da bu məbləğ Britaniya banklarından birində olan hesaba köçürülməlidir. Bundan sonra investor öz ailəsi ilə birlikdə bu ölkədə qanunla yaşamaq və işləmək hüququ əldə edir. 5 ildən sonra ailə yaşayış icazəsi, 1 ildən sonra isə vətəndaşlıq əldə edir. Daha varlı insanlar üçün vətəndaşlığın verilməsi proseduru sürətləndirilə bilər. Ölkəyə 5 milyon funt sərmayə yatırdıqda vətəndaşlıq 4 ildən, 10 milyon funtdan çox sərmayə yatırdıqda isə 3 ildən sonra verilə bilər.

Anar Məmmədovun Böyük Britaniya vətəndaşlığı alması xəbərləri 2-3 il əvvəldən yayılmağa başlayıb. Bunu nəzərə alsaq, belə ehtimal etmək olar ki, nazir oğlu manat ekvivalentində təxminən 25 milyon xərcləməklə 3 ilə Böyük Britaniya vətəndaşlığı alıb. Yada salaq ki, 2016-cı ildə yayılan xəbərlərdə deyilirdi ki, Anar Məmmədov Böyük Britaniya vətəndaşlığı alıb. Həmin vaxt deputat olan əmisi Elton Məmmədov bu məlumatlara münasibət bildirərkən bütövlükdə qardaşı oğlunun xarici vətəndaşlıq almasını təkzib etməmişdi.

A.Məmmədovun atası Ziya Məmmədovun dövlət büdcəsindən taladığı pullar hesabına qurduğu "Garant Holdinq"in rəhbərliyindən istefa verməsi də yeni xəbər deyil. Ziya Məmmədovun "ulduzunun sönməsi" bu klanın iqtisadi sferadakı bizneslərinin də "milli"ləşdirilməsinə gətirib çıxardı. Bu gün Məmmədovların Azərbaycan daxilindəki biznes imperiyası süquta uğramış durumdadır. Ziya Məmmədov nazirliyinin son 1 ilində səlahiyyətlərini bir-birinin ardıca itirdiyi günlərdə, oğlu Anar Məmmədovun rəhbərlik etdiyi "Garant Holdinq"in də törəmə şirkətlərini bağlayır, "qayçılayır", lisenziyalarını ləğv edirdilər. Ziya Məmmədov ilyarımdan artıqdır ki, vəzifədən çıxarılıb. Onun mal-mülkünün "budanması" isə hələ də davam edir. 2018-ci il aprelin 1-dən onun çoxsaylı obyektlərindən biri olan Qubadakı beşulduzlu "Quba Rixos" hoteli rebrendinq edildi. Məlum oldu ki, sabiq nazirin oğluna beşulduzlu "Rixos Quba Azərbaycan" hotelini təhvil vermək tapşırılıb. Bundan sonra hotelin sahibi dəyişdirilib. Məmmədovlardan son olaraq alınan təkcə Qubadakı hotel olmadı. Azərbaycandakı "Quba Rixos" hoteli ilə yanaşı onların Gürcüstandakı "Rixos Borjomi"sini də əllərindən aldılar.

Yada salaq ki, Ziya Məmmədovun ailə holdinqi bir vaxtlar Bakının sərnişindaşıma nəqliyyatında inhisarçı mövqedə olan "Transgate" MMC-yə sahib idi. Ziya Məmmədovun kreslosu laxlayandan sonra "Transgate"ə məxsus avtobuslar istifadəyə yararsız adı ilə Bakını əhatə edən marşrut xətlərindən çıxarıldı. MMC-yə məxsus 10-dan çox marşrut başqa daşıyıcılara təhvil verildi. Məmmədovların Bakının mərkəzində ucaltdıqları və bir vaxtlar hər kəsin Ziya Məmmədovun klanı üçün "xilas kəməri" hesab etdiyi "Trump Tower" də artıq özgəninkiləşdirilib.

Bina Məmmədovun nəzarət etdiyi "Garant Holdinq" tərəfindən tikilmişdi və onun şirkətinə məxsus idi. Tramp adının bu hoteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komission haqqı olaraq 2,5 milyon dollar alıb. Yayılan maliyyə sənədlərindən məlum olurdu ki, Anar Məmmədovun hotelini idarə etmək üçün "THC Baku Hotel Manager Services LLC", "THC Baku Hotel Manager Services Member Corp.", "THC Baku Services LLC" və "THC Baku Services Member Corp." adlı şirkətlər təsis edilib. Həmin şirkətlərin ikisində Donald Tramp 100 faiz, ikisində isə 99 faiz paya malikdir. Hotelin Trampın dəbdəbəli hotellər zəncirinin bir hissəsi kimi idarə olunacağı haqda da xəbərlər vardı. Amma bu baş vermədi. Hoteldən "Trump Tower" sözləri söküləndən sonra Ziya Məmmədovun rəhbərlik etdiyi nazirlik söküldü, yenidən təşkil edildi. Ziya Məmmədov və komandası yeni nazirlikdə vəzifəsiz qaldılar. Hakimiyyətin 1 gedişi ilə sabiqə çevrilən Ziya Məmmədovun və klanının çox ciddi narazılığına səbəb olub. İndi məlum olur ki, oğlunu illər öncə ölkədən çıxaran sabiq nazir onun təhlükəsizliyini təmin etmək üçün 25 milyon manatından da keçib, Böyük Britaniya vətəndaşlığı alıb.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Deputat yeni həbslərin anonsunu verdi

## Fəzail Ağamalı: "Satqınlar Azərbaycana gətiriləcək"

**"Azərbaycan dövlətçiliyinə qarşı çıxan, dövlət atributlarına təhqiramiz fikirlər səsləndirən və onun təşkilatçısı, maliyyə təminatçısı qismində çıxış edən anti-Azərbaycan yaramazlığının, əxlaqsızlığının içərisində yer alan hər kəs qanun çərçivəsində hüquqi qiymətini almalıdır, cəzalandırılmalıdır". Tanınmış iş adamı və sabiq deputat Hüseyn Abdullayevin həbsi barədə modern.az-a danışan deputat Fəzail Ağamalı belə deyib. O bildirib ki, hər kəs qanun çərçivəsində hüquqi qiymətini almalıdır: "Çox müsbət haldır ki, Azərbaycan hüquq-mühafizə orqanları seçkilərdən dərhal sonra hərəkətə keçdi. Və görünən budur ki, anti-Azərbaycan təbliğatının içərisində yer alanların ölkəmizə gətirilməsi prosesi başlayıb".**



Deputat anti-Azərbaycan təbliğatının iştirakçılarından birinin də Hüseyn Abdullayev olduğunu vurğulayıb:

"Mən əminəm ki, hüquq-mühafizə orqanlarımızın əməkdaşları Hüseyn Abdullayevin istintaqa verdiyi ifadələrlə kələfin ucunu tutaraq sonuna qədər gedə biləcəklər. Və bütövlükdə şəbəkəni ifşa edəcəklər. Kimliyindən asılı olmayaraq hər kəs Azərbaycan qanunları qarşısında cavab verəcək. Kimsə düşünməsin ki, hansısa dövlətə sığınmaqla, gizlənməklə özünü istintaqdan kənarda saxlaya biləcək. Bu cür düşüncələri özündə daşıyanlar çox böyük səhvə yol verirlər. Çünki Azərbaycan güclü bir dövlətdir, hüquq-mühafizə orqanları əməkdaşlarımız yetərincə peşəkardır, dövlətə sadiqdirlər. Məhz onların peşəkarlığının nəticəsi kimi bu cür satqınlar Azərbaycana gətiriləcək, onların ifşa olunması prosesi davam edəcək".

# Hakim ədaləti



Samir SARI

**Bizim camaatın bir müdrik sözü vardı, mübahisə edən (dalaşan) iki nəfərin (tərəfin) arasında qalan, ədalətli olmaq istəyən, amma qara-qışqırıqda başı çatlayan adamlara deyərdilər ki, "olma qazı, ağrımasın başın".**

Bilirsiniz, keçmişdə, səltənətlərdə şəriət hakimlərinə qazı deyərmişlər. Sultanların seriallarında "Kadı əfəndi" deyilən bir obraz var ha, bax, onlar həmin qazılar, hakimlərdir.

Deyim ki, heç qədimlərdə də qazılıq (hakimlik) rahat iş olmayıb. Düzdür, keçmiş qazılar da yaxşı dolanırmışlar, güzəranlarına söz yoxmuş, amma o zamanlar da işin özü başağrılı iş imiş.

Görünür, qazı-hakimlərin aldığı rüşvətin enerjisi, rahatlığı peşənin verdiyi başağrısından daha güclüymüş ki, o üzdən qazı olmaq üçün iddialı adam tarixən çox olub. Ac qarlndansa ağrıyan baş yaxşı hesab olunub.

Hakimliyin ən yaxşı dövrü isə ötən əsrin 30-cu illərində olub. O dövrün hakimləri 3-5 dəqiqəyə adama ölüm hökmü, 25 illik həbs və sürgün cəzası kəsirmişlər. Nə "ədalətsizlik oldu" deyə qaçıb mətbuat konfransı keçirən vəkil varmış, nə də apelyasiya şikayəti verən.

Axtarsan, o dövrün hakimlərinin artıq yetkin olan nəvə-nəticələri babalarının vaxtilə hakim olmasıyla qürur duyurlar, əgər hüquqşünasdırlarsa, yekə-yekə "biz sülaləcə hüquqşünasıq, babam da hakim olub" deyirlər. Bəlkə də onların içində Cavidə, Cavada, Müşfiqə cəza kəsən hakimlərin züryətləri də var.

Neçə gündür, insanlarımız kütləvi şəkildə hakim ədalətsizliyinə qarşı üsyan edirlər. Elə olmalıdır, çünki hakim ədalətsizliyi çox mühüm şeydir, insanların taleyinin səmtini dəyişə bilir.

Bir məsələ var ki, bizim ölkəmizdə adamlar əsasən futbol hakimlərinin ədalətsizliyinə etiraz bildirirlər.

Məsələnin başqa bir tərəfi də odur ki, bizim adamlar əsasən başqa ölkələrin hakimlərinin ədalətsizliyinə üsyan püskürürlər. Həm də kütləvi şəkildə.

Düzdür, o hakimlərin ədalətsizliyinin, hansısa komandanın uduzmasına səbəbkar olmalarının bizim taleyimizə elə də isti-soyuğu yoxdur və bizim haqsız hakimlərə kütləvi şəkildə nervilənməyimiz qıraqdan baxanlara səfehlik kimi görünə bilər, amma bizi yandırıb-tökən ədalətsizlikdir.

Biz haqq-ədalət adamlarıyıq, görürük ki, məsələn, qardaş ölkənin hakimi Çakır, bizə bir ti-şört yaxın olan referi "Bayer"ı "Real"a uduzdurdu, penaltisini vermədi, hiddətlənirik. Əgər Çakır "Real"ın penaltisini verməsəydi və onu "Bayer"ə uduzdursaydı, biz yenə qəzəblənəcəkdik.

Yaxud "Roma"nın üç halal penaltisindən yalnız birini verən hakimə necə dözək? Dözmək olmur. Axı finalda oynamaq "Roma"nın haqqıydı. Nə olsun ki, "Liverpul"da Məhəmməd Salah kimi ulduz oyunçu var və o, bizə bir çalma yaxındır. Fərqi yoxdur, ədalət hər şeydən üstündür, qoy güclü olan qazansın. Bizim dərdimiz budur.

Biz ona görə beləyik ki, heç vaxt ədalətli hakim görməmişik - nə futbolda, nə qeyri-futbolda. Düzünə qalsa, biz heç ədalət-filan da görməmişik. "Dünyanın düz vaxtı" adlandırdığımız keçmiş zamanlarda klassik şairimiz əbəs yerə deməmişdi ki, cahan mülkündə doğru halət görmədim, hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.

Hakim ədalətsizliyinə qarşı üsyanımız yaxşıdır, təqdir olunasıdır, amma pis olan odur ki, romalı Nayinqolanın haqqını müdafiə etdiyimiz qədər ramanalı İmanqulunun haqqını müdafiə etmirik, yazığı heç nə üstündə tutub basırlar, gedir.

Çünki qeyri-futbol hakiminə etiraz etmək təhlükəlidir, söyərsən, hədələyərsən, cavab verməli olarsan. Amma futbol hakiminin nəslini sərbəstcə söyüb-biabır eləmək olar, buna görə heç kəs sənə "elə demə" deməyəcək.

Bəlkə də o müdhiş oyundan sonra türkiyəli hakim Cüneyt Çakır qəfildən gəlib Bakının küçəsində peyda olsaydı, alman klubunun azarkeşləri, fanatları *(5 min kilometr o tərəfdəki yad bir dövlətin, qeyri-doğma şəhərin klubunun fanatı olmaq da nəsə başqa bir fenomendir)* tökülüşüb onu döyərdilər. Amma həmin azarkeşlər dünən keçirilən məhəllə uşağına nahaq yerə beş il həbs cəzası kəsmiş hakimə rast olsalar, bir söz deməzlər, bəlkə də qabağına yeriyib ikiəlli görüşərlər.

Uzun sözün müxtəsəri, biz haqq-ədalət sevən, uman camaatıq, sadəcə, onu lazımi yerdə tələb etməyə gücümüz çatmır. "Gücümüz" sözü şərti ifadədir.



# Ümid var gələcəyə!

Zamin HACI
zaminhaci@gmail.com

“Əgər problemi pulla həll eləmək mümkündürsə, bu, problem deyil, xərclərdir”

*(Yəhudi məsəli)*

**Təzə baş nazirimiz, göz dəyməsin, maşallah, yaman sərt başlayıbdır, artıq ikinci sərəncamını veribdir və islahatlar sel kimi gəlməkdədir. Birinci sərəncam miqrantlara verilən anket vərəqinin formasında dəyişikliklə bağlı idisə, ikinci sənəd lap kəskindir, islahat bunun hər sətrindən bal kimi süzülür. Zəhmətkeşlərimizə bircə o qalır ki, bu balı nəlbəkiyə yığıb yalasınlar. “Sərəncam balı, xalisindən” - bu marka ilə dünya bazarına da çıxaracağıq.**

Uzun sözün qısası, təzə baş nazirimizin kabinetdə ikinci tarixi sərəncamı tütün məhsullarının zərərlərinin azaldılması istiqamətində maarifləndirici tədbirlərin çoxaldılması haqdadır. Sözgəlişi, burada bizim administrativ islahatların, yenidənqurma siyasətimizin irsi xarakteri, davamlılığı, axıcılığı da özünü göstərir, çünki əski baş nazir Artur müəllim son sərəncamlarından birində ictimai yerlərdə siqaret çəkilməsi qadağasına sulu qəlyan və ümumiyyətlə, tütün məhsullarını da əlavə etmişdi. Başqa cür ola da bilməzdi, bəzi müxalifətçilər qəsdən ictimai yerlərdə eşmə, qəlyan, elektron siqaret çəkirmişlər. Ancaq bunlara nəsə tədbir görmək olmurdu. Qanunda yox idi axı. Qanunda ancaq siqaret qadağası həkk olunmuşdu. Bizdə isə qanunun hərfinə dəqiq əməl edilir. Misal üçün, bu yaxında deputatxana icazəsiz küçə aksiyalarını çıxanları daha çox cərimələmək, həmçinin hərbi vəziyyətdə müxalifət partiyasını qadağan eləmək qanunu qayırmağa hazırlaşır. Belə baxanda guya küçəyə icazəsiz çıxan varmı? Heç kim çıxmır. Camaat hətta zibil vedrəsini boşaltmağa getmək üçün uçaskovdan möhürlü-ştamplı kağız alır. Ərlə arvadın əl-ələ tutuşub ağaclıqdan keçməsi üçünsə Ekologiya, Fövqəladə Hallar, Kənd təsərrüfatı, Müdafiə nazirlikləri, o cümlədən Fitosanitar İdarəsi, Şəhərsalma Komitəsi, Dini İşlər Agentliyi və ASAN Xidmət yanında Qoşan Zillət Komissiyası müvafiq arayış verməli, həmin arayış tərəfimizdən aşkar edilib götürülməlidir.

Qaldı hərbi vəziyyətdə müxalifəti qadağan eləmək, bunu oxuyanda “Məhsul” stadionunun qarovulçusu gülməkdən ölmüşdür. Sabah üçü-yeddisi bir yerdə veriləcək, hamımız gedərik.

Dediyim odur ki, bizdə hər şey qanunla, qərarla olmalıdır, dövlətçiliyimiz üçün vacibi budur. Şah qanun deyil, qanun şahdır (buna görə məni tutmasalar yaxşıdır - bəlkə dövlət sirrini açdım).

Bu arada, ekologiya idarəmizə Umayra xanımın təzədən qayıtması bizi çox sevindirmişdir, çünki Umayra xanım Azərbaycanda həqiqəti deyən yeganə qadın idi - haçan desə, yağış yağacaq, həqiqətən yağırdı. Desə, tufan olacaq, gərək ölüb evdə oturaydın. Nəyəsə görə onu 2-3 il qabaq idarədən çıxartmışdılar, o gedəndən havalar korlanmışdı. Hətta yaz və payız fəsilləri az qalmışdı tamam ləğv olunsun, biz yaydan birbaşa qışa, qışdan da hoppanıb yaya keçək. Dəhşətdir. May ayında da soba qalayarlar? Camaat evində donur. Bilmirəm, Nazirlər Kabineti hara baxır?! Nəsə. İndi ümid var hava düzələcəkdir. Ümid var gələcəyə, Səs versək Elçibəyə!

Görünür, köhnə ekologiya nazirimiz havaların düzəlməsini istəmirmiş, ona görə işdən azad elədilər. Hərçənd pis nazir deyildi, adı korrupsiyada heç çəkilməmişdi nən biləni. İndi də küçədə piyada gedən yerdə şəklini çəkib internetə vurmuşdular. Nazir olanda da piyada gəzərmiş. Bizdə velosiped sürən nazir də var, ancaq Avropa Şurası nədənsə bunları görmək istəmir. Elə bizdə nöqsan axtarırlar.

Axırda məndən sizə məsləhət, harada təzə gömrük nazirimizin intervüsünü görsəniz, mütləq baxın. Elmar Məmmədyarovdan sonra ana dilimizi gözəl bilən növbəti kadr yetişməkdədir. Xoşunuza gələcəyinə adım kimi zaminəm.

Allah sənə rəhmət eləsin, Mirzə Cəlil.



# Ermənistan üçün gerisayım başladı - İrəvan iki od arasında

İşğalçı ölkənin taleyi ilə bağlı suallar çoxalır - Qərblə Rusiyanın Ermənistan davası böyüyür; Paşinyan Dağlıq Qarabağdakı saxta qurumu tanıya, Xocalı aeroportunu işə sala bilər? **Rusiya nəşri:** “O, baş nazir kimi Moskva üçün başağrısı olacaq...”

**Ermənistanda baş nazir qovğası hər gün daha qəliz çalarlar almaqdadır. İlk baxışda “rəngsiz” inqilabın şəriksiz lideri, parlamentdəki “Yelk” fraksiyasının və “Vətəndaş Müqaviləsi” partiyasının rəhbəri Nikol Paşinyanın mayın 8-də ikinci cəhddə baş nazir olmaq şansı real görünür. Lakin analitiklər həm də tələsməməyi tövsiyə edirlər. Əsas vurğu da ona salınır ki, gizli “qərbpərəst” sayılan Nikol Paşinyan bir siyasətçi olaraq, hələ ki “bağlı boğça” olaraq qalır.**

Məsələ ondadır ki, Paşinyanın mayın 1-də baş nazirliyə yeganə iddiaçı qismində etdiyi çıxışı da bütün “i”lərin üzərində nöqtələri qoymayıb. Müxalifət lideri hətta ənənəvi mövqeyini dəyişərək, dəfələrlə “Ermənistan Avrasiya Birliyi və KTMT-də qalacaq” desə də, Rusiyada ona inam yenə güclü deyil. Bunu həm Rusiya KİV-də gedən analitik materiallardan, həm də politoloqları şərhindən görmək olar. Belə təxminlər də var ki, Nikol Paşinyan ölkənin birinci şəxsi olandan sonra Mixail Saakaşvili kimi Rusiya ilə bağlı verdiyi vədləri tutmaya da bilər.

*****

**“Ermənistanda onun üçün misli görünməmiş bir hadisə baş verib: xarici güclərin amansız kəndir çəkişməsi başlayıb. Maraqlıdır, kəndirin ucları kimin əlində qalıb - Rusiyanın, yoxsa Qərbin?” “Yeni Müsavat” xəbər verir ki, bu barədə rosbalt.ru nəşrində Ermənistandakı son duruma həsr olunmuş analitik məqalədə bildirilir.**

**Məqalədə həmçinin deyilir:** “Rusiya Paşinyanı müvəqqəti də olsa, öz xeyrinə ”verbovka" edə bilibmi, yoxsa başqa namizədlərlə bağlı anlaşma var? - hansı ki, o da istisna deyil. Hər iki variant yalnız bir məqsəd güdür - regionda qüvvələr nisbətinin radikal dəyişikliyinə imkan verməmək".

**Müəllif daha sonra Nikol Paşinyanın heç də siyasi baxımdan tarazlı biri olmadığına diqqət yönəldərək yazır:** “Paşinyan etibarlı adam deyil. Əgər o, baş nazir olsa, hər halda, Azərbaycan və Türkiyə faktorlarını nəzərə alıb təhlükəsizlik və maliyyə donoru çətiri kimi Rusiyanın maraqları ilə hesablaşmaq zorunda qalacaq. Ancaq Qərbə mütləq can atacaq və Moskvaya daima başağrısı yaradacaq. Bu isə o anlama gəlir ki, Paşinyan baş nazir postunu tutsa, Rusiya çalışacaq ki, maksimum tez onu aktiv siyasətdən kənarlaşdırsın. Necə deyərlər, Ermənistanda ”sistem" çətin ki, dəyişsin. Bu sistemin yalnız fiqurantları əvəzlənə bilər. Odur ki, Moskva yəqin ki, situasiyanı qaytarmağa çalışacaq, əgər əlbəttə ki, Paşinyanın özünü müdafiə instinkti işə düşməsə".

*****

Moskvanın isə postsovet ölkələrinə ən müxtəlif müdaxilə reseptləri var. Bu yerdə xatırladaq ki, rusiyalı politoloq Oleq Kuznetsov Nikol Paşinyana qarşı sui-qəsd ehtimalını istisna etməyib. Gürcüstan və Azərbaycandan fərqli olaraq Ermənistanda Kremlin “əli”nin çox yerə çatdığını və 1999-cu ildə parlamentin güllələnən edildiyini nəzərə alsaq, analitikin ehtimalını qəribçiliyə salmağa dəymir.

“Ermənistandakı situasiya ilə bağlı proqnozlar tez-tez yanlış çıxır. Çoxları düşünürdü ki, mayın 1-də hər şey yekunlaşacaq *(Paşinyanın baş nazir olması nəzərdə tutulur - red.)*. Ancaq bəlli olduğu ki, gözlənilən baş vermədi”. Bu sözləri isə “Yeni Müsavat”ın məlumatına görə, 1 in.am nəşrinə açıqlamasında **rusiyalı politoloq Vadim Dubnov** deyib. O da hadisələrin konkret inkişaf ssenarisini cızmaqda çətinlik çəkib.

Rusiya hökuməti yanında Maliyyə Universitetinin politologiya departamentinin dosenti Gevorq Mirzəyan da “RİA Novosti” agentliyində dərc edilmiş məqaləsində əsas suala cavab tapmağa çalışıb (virtualaz.org). O, pessimistlərin mövqeyini xatırladaraq yazıb ki, digər inqilabçı Mixail Saakaşvili də hakimiyyətə təzə gələndə belə deyirdi, Rusiya ilə yaxşı münasibətlər saxlayacağı haqda danışırdı. Amma sözünün üstündə durmadı.

**Gevorq Mirzəyana görə, bu məqamda pessimistlərə xatırlatmaq olar ki, erməni xalqı gürcü xalqı deyil və daha rusiyameyllidir. Ona görə də Paşinyana Rusiyadan üz döndərməyə imkan verməz.** “Lakin əhalinin sağlam düşüncəsinə arxayınlaşmaq da olmaz, üstəlik indiki texnologiya əsrində ”beyinlərin yuyulması"nı nəzərə alanda. Paşinyanı hakimiyyətə gənclər gətirib və onların da arasında antirusiya meylləri hər gün artır", - deyə o qeyd edib.

**Müəllifə görə, Paşinyanın problemi həm də ondadır ki, o, verdiyi vədləri, o sırada korrupsiya və inhisarçılığın aradan qaldırılmasını, iqtisadiyyatın bataqlıqdan çıxarılmasını müvəqqəti baş nazirlik dövründə yerinə yetirə bilməz:** “Axı o, ölkəni növbədənkənar seçkilərə hazırlamalıdır və bu seçkilərin bir neçə ay sonra keçirilməsi nəzərdə tutulur”.

**Ona görə də erməni şərhçi hesab edir ki, populist Paşinyan reytinqini qəfil qaldırmaq üçün xarici siyasət meydanında kəskin addımlar ata bilər:** “Məsələn, Dağlıq Qarabağın ”müstəqilliyini" tanıyar və Xankəndi aeroportunu işə salar, yaxud Dağlıq Qarabağ ətrafında situasiyanın kəskin eskalasiyasına səbəb olan başqa addımlar atar. Bununla da Moskvanın başqa sahələrdə bərk məşğul olduğu bir vaxtda Rusiyaya çoxlu problemlər yarada bilər".

*****

Lakin eyni zamanda bununla özünə və hakimiyyətinə ciddi problemlər yaradar. Çünki separatçı rejimin dövlət kimi tanınması avtomatik şəkildə sülh qapılarının birdəfəlik bağlanması və müharibənin tətiyini çəkmək demək olacaq. O halda Azərbaycanın ayrı yolu, sadəcə, qalmayacaq.

Xocalı hava limanının qanunsuz fəaliyyəti ilə bağlı da rəsmi Bakının prinsipial mövqeyi bəllidir. Qarabağın hava məkanı Azərbaycanın suveren məkanına daxildir və istənilən qanunsuz uçuşa qarşı sərt və adekvat tədbir görüləcək. Yəni belə hava obyektləri dərhal vurulacaq. Bundan ötrü Azərbaycanın öhdəsində ən müasir sistemlər var.

Əlavə edək ki, bunu yaxşı bildiyi üçün hətta Xocalı canisi Serj Sərkisyan da Dağlıq Qarabağa, Xankəndinə təyyarədə gəlməyə risk eləməyib - hərçənd erməniləri ruhlandırmaq üçün ilk sərnişinlərdən birinin özü olacağına söz vermişdi. Amma arzusu ürəyində qaldı - bütövlükdə “miatsum” arzusu və ya separatçı qurumu dövlət qismində tanıtmaq arzusu kimi...

**Ermənistan üçün artıq yenə gerisayım başlayıb.**

❑ **Siyasət şöbəsi, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

# Qarabağ separatçıları Ermənistandakı "Qarabağ klanı"nı qorumaq üçün hərəkətə keçdi

## Ermənistan əhalisinin diqqətini İrəvandakı hadisələrdən yayındırmaq üçün Qarabağdakı işğalçı ordu təlimlərə başladı, mülki sakinlərimiz atəşə tutuldu; İrəvanda qan töküldü: "Əgər 8-də Paşinyan basqılarla baş nazir seçilsə..."

**Aprelin 13-dən etibarən Ermənistanda həyatı iflic etmiş etiraz aksiyalarına moratorium qoyulub. Müxalifət lideri, ölkənin baş naziri postuna əsas iddiaçı Nikol Paşinyanın çağırışından sonra yolların açılmasına qərar verilib.**



Güman olunur ki, bu, Ermənistan Milli Məclisinin mayın 8-də keçiriləcək iclasında Paşinyanın hökumət başına gətiriləcəyi barədə yekdil qərarın olması ilə bağlıdır. Hər halda, müxalifət liderinin tərəfdarlarını evə yollaması təslim olmaq anlamı vermir.

Virtualaz.org-un yazdığına görə, Ermənistanda ötən gün hakim partiya, nəhayət, kapitulyasiyaya razılaşıb və Nikol Paşinyanın baş nazir seçilməsinin yolunu açıb. Respublika Partiyası elan edib ki, parlament üzvlərinin üçdə birinin irəli sürdüyü namizədi dəstəkləyəcək. Paşinyan isə artıq 105 yerlik parlamentdə 45 deputatın dəstəyini qazana bilib və beləliklə də onun mayın 8-də baş nazir seçilməsinə əngəl qalmır. Hərçənd Nikol öz tərəfdarlarını "ayıq olmağa" və onun "Facebook" səhifəsini yaxından izləməyə çağırıb.

Bəs Ermənistan hakim partiyasının bu kapitulyasiyasının səbəbi nədir? Axı dünənki qərardan cəmi bir gün əvvəl-mayın 1-də partiyanın parlament fraksiyası qərar vermişdi ki, Paşinyanın namizədliyi onları qane etmir və bu namizədə səs verməyəcəklər. Bu, partiyanın rəsmi qərarı idi və bütün fraksiya üzvləri üçün məcburi sayılırdı. Sayt bu suallara cavab tapmağa çalışıb. Qeyd edib ki, Rusiya hökuməti yanında Maliyyə Universitetinin politologiya departamentinin dosenti Gevorq Mirzəyan "RİA Novosti" agentliyində dərc edilmiş məqaləsində bunun səbəblərini araşdırıb.

Mirzəyanın yazdığına görə, məlumatlardan biri belədir ki, hakimiyyət və müxalifət müəyyən kompromisə nail oldular, bu kompromisin tərkib hissəsi Paşinyanın baş nazir olmasıdır. Digər məlumata görə, heç bir kompromis olmayıb və respublikaçılar ölkə boyu yolların bağlanmasını görərək hakimiyyətdə qalmağa heç bir şansları qalmadığına əmin olublar. Üçüncü məlumata görə isə Moskva öz sözünü deyib-Serj Sərkisyana israrla məsləhət gördülər ki, bu xaosa son qoysun.

Müəllif xatırladır ki, bütün böhran ərzində Rusiya susub, lap əvvəldən heç kimin tərəfini tutmayıb və baş verənləri "Ermənistanın daxili işi" adlandırıb. "The Washington Post"un yazdığı kimi Moskva Sərkisyanı sadəcə qurban verib ki, Ermənistanı öz təsir zonasında saxlasın.

Mirzəyana görə, Moskva üçün optimal olanı Ermənistanda nə Respublika Partiyasını, nə müxalifəti təmsil etməyən "texniki baş nazirin" seçilməsi idi. Həmin baş nazirin vəzifəsi ölkəni yeni seçkilərə hazırlamaqdan ibarət olmalıydı. Lakin Paşinyanın hakimiyyət hərisliyi bütün kartları qarışdırdı. Və Nikolu başa düşmək olardı, o nəzərə alırdı ki, insanlar küçələrə ona görə deyil, Serj Sərkisyanın hakimiyyətinə qarşı çıxıblar. Və əgər indi Nikol Paşinyan bu dalğadan istifadə edib hakimiyyətə gəlməsə, onun populyarlığı bir neçə ay sonra azalacaqdı və seçkiləri uduza bilərdi.

Bəs Paşinyan baş nazir kimi Rusiyanı nə dərəcədə qane edəcək? Bu məsələdə həm optimistlərin, həm pessimistlərin öz tutarlı arqumentləri var. Məqalədə bu məqamlardan da bəhs olunub. Vurğulanıb ki, əgər Paşinyanın etirazlara qədər olan mövqeyindən çıxış edilsə o, anti-Rusiya mövqeli siyasətçidir və Ermənistanın Avrasiya İttifaqına üzvlüyünə qarşıdır. Lakin indi o, mövqeyini dəyişib. Paşinyan dəfələrlə deyib ki, Ermənistanı Avrasiya İttifaqından, KTMT-dən çıxarmayacaq, Gümrü bazası yerində qalacaq, Ermənistanın Türkiyə ilə sərhədlərini yenə rus əsgərləri qoruyacaq. Və ölkəsinin bu təşkilatlarda mövqeyini gücləndirməyə çalışacaq. Optimistlər Paşinyana inanmağa meyllidir. Çünki o, hakimiyyətə gələndə reallıqlarla hesablaşmalı olacaq. Ermənistanın isə Rusiya ilə sıx müttəfiqlikdən başqa yolu yoxdur. Ən azından ona görə ki, təkcə Moskva Qarabağ məsələsində indiki status-kvonu saxlamağa və Ermənistanın təhlükəsizliyinə təminat verə bilər. Pessimistlər isə xatırladırlar ki, Qafqazdakı digər inqilabçı Mixail Saakaşvili də hakimiyyətə təzə gələndə belə deyirdi, Rusiya ilə yaxşı münasibətlər saxlayacağı haqda danışırdı. Amma sözünün üstündə durmadı. Gevorq Mirzəyana görə, bu məqamda pessimistlərə xatırlatmaq olar ki, erməni xalqı gürcü xalqı deyil və daha rusiyameyllidir. Ona görə də Paşinyana Rusiyadan üz döndərməyə imkan verməz. Lakin əhalinin sağlam düşüncəsinə arxayınlaşmaq olmaz, üstəlik, indiki texnologiya əsrində "beyinlərin yuyulması"nı nəzərə alanda. Paşinyanı hakimiyyətə gənclər gətirib və onların da arasında anti-Rusiya meylləri hər gün artır.

Paşinyanın problemi həm də ondadır ki, o, verdiyi vədləri, məsələn, korrupsiya ilə mübarizəni, inhisarçılığın aradan qaldırılmasını, iqtisadiyyatın bataqlıqdan çıxarılmasını müvəqqəti baş nazirlik dövründə yerinə yetirə bilməz. Axı o, ölkəni növbədənkənar seçkilərə hazırlamalıdır və bu seçkilərin bir neçə ay sonra keçirilməsi nəzərdə tutulur. Ona görə də müəllif hesab edir ki, populist Paşinyan reytinqini qəfil qaldırmaq üçün xarici siyasət meydanında kəskin addımlar ata bilər. Məsələn, Dağlıq Qarabağın "müstəqilliyini" tanıyar və Xankəndi aeroportunu işə salar, yaxud Qarabağ ətrafında situasiyanın kəskin eskalasiyasına səbəb olan başqa addımlar atar. Bununla da Moskvanın başqa sahələrdə bərk məşğul olduğu bir vaxtda Rusiyaya çoxlu problemlər yarada bilər.

**"Serj Sərkisyan ola bilsin "korrupsiya ilə döyüşməyib", amma xarici siyasətdə özünü tamamilə realist və adekvat aparıb. Paşinyanda bu adekvatlıq çatacaqmı, bunu onun baş nazirliyi göstərəcək" - erməni ekspert Moskvadan yazıb.**

**Bu arada məlumat yayılıb ki, Nikol Paşinyan Rusiyanın, Avropa Birliyinin, İranın və Gürcüstanın səfirləri ilə görüşmək niyyətindədir (Sputnik).** "Biz Rusiya, Avropa Birliyi, İran və Gürcüstan səfirləri, həmçinin diplomatik korpus nümayəndələri ilə müzakirələr planlaşdırırıq. Biz onlarla siyasi vəziyyəti müzakirə etmək niyyətindəyik", - Paşinyan bildirib. Müxalifət liderinin sözlərinə görə, Ermənistanda baş verən hadisələrdə hansısa geosiyasi qəsd və səbəblər axtarmaq lazım deyil. Onun Ermənistanın baş naziri seçilməsi halında, ölkənin xarici siyasəti öz istiqamətini saxlayacaq.

**Ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, Paşinyanın baş nazir olmasına əngəl törədən qüvvələr bundan sonra da qərarlı olacaqlar:** "Milli Məclisin yeni tərkibində vəziyyətin dəyişməməsi ehtimalı daha böyükdür. Çünki Paşinyan nə qədər Rusiya ilə bağlı keçmiş siyasətin dəyişməyəcəyini söyləsə də, Kreml ona inanmır. Onun Sərkisyanı əvəzləyəcək adamı da var. İşdir əgər 8-də Paşinyan basqılarla seçilsə, onda Rusiya onu qısa zamanda yıxmaq planını işə salacaq. Paşinyan Rusiyanın istədiyi adam deyil və onun ikinci bir Saakaşvili olmasına imkan verməz. Burada baş verənlər artıq klan söhbəti deyil. Qarabağlılar onun ətrafında da var. Bako Saakyan adlı separatçı loyal mövqe sərgiləyir. Ermənistandakı Qarabağ mafiyası da gözləyir. Hələ kimin daha güclü olduğunu bilmədiyindən fikrini açıq bildirmir".

Ermənistandakı hadisələri arxa plana keçirmək istəyən qüvvələr var gücü ilə Qarabağda gərginlik yaratmağa çalışır. Son günlər Azərbaycana məxsus hərbi texnikanın "manevrləri" barədə xəbərlər və videogörüntülər yayan düşmən tərəf mayın 3-də işğal altındakı Ağdam ərazisində hərbi təlimlərə başladı. Eyni zamanda gərginliyi tətikləyən təxribata əl atıldı. Belə ki, erməni silahlı bölmələri Ağdamda Suvarma İdarəsinin əməkdaşlarının olduğu yük avtomobilini atəşə tutub. Məlumata görə, Ağdam rayonunun Çəmənli kəndi ərazisində nasaz olan su artezian quyusunu təmir etməyə gedən işçilər düşmən tərəfindən atəşə məruz qalıb. 02 AC 416 dövlət nömrə nişanlı, "KamAZ 43114" markalı avtomobil güllə-baran edilib. İdarənin maşında olan 5 əməkdaşı xəsarət almasa da, avtomobil yararsız hala düşüb. İdarənin rəisi Hafiz Əzimzadə bildirib ki, ərazidə yüzlərlə artezian quyusu var. Ermənilər kənd sakinləri ilə yanaşı, ərazidə fəaliyyət göstərən işçiləri də atəşə tuturlar. Müdafiə Nazirliyindən faktı təsdiq edərək bildiriblər ki, bu, Ermənistan tərəfindən mülki əhalinin hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş məqsədyönlü təxribatıdır: "Cəbhə xəttində vəziyyət bölmələrimizin tam nəzarəti altındadır".

Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yerləşdirilən erməni hərbi birləşmələri hazır vəziyyətə gətirilib. Publika.az AzadlıqRadiosunun erməni xidmətinə istinadən xəbər verir ki, işğal olunmuş torpaqlarda yaradılan qondarma "DQR"-in "prezidenti" Bako Saakyan separatçı rejimin "müdafiə nazirliyi"ndə müşavirə keçirib. Qarabağdakı erməni hərbi birləşmələrinin rəhbərliyi ilə görüşən Saakyan təmas xəttindəki vəziyyəti müzakirə edib və erməni ordusunun hazır vəziyyətə gətirilməsi ilə bağlı göstəriş verib. Ermənistanda daxili gərginliyin fonunda Qarabağdakı erməni hərbiçilərin hazır vəziyyətə gətirilməsi diqqət çəkir. Ekspertlər Ermənistanın hərbi-siyasi rəhbərliyinin xalq hərəkatının qarşısını almaq üçün Qarabağda təxribatlara əl ata biləcəyi ehtimalını vurğulayırlar. Bu isə ondan xəbər verir ki, Ermənistanda "Qarabağ klanı"nı xilas etmək istəyən Qarabağdakı separatçılar da hərəkətə keçib və işğalçı ordu hər an işə qarışa bilər.

Mayın 3-də işğalçı ölkənin özündə də silahlar işə düşüb. Belə ki, Böyük Britaniyaya məxsus olduğu bildirilən HSBC bankının İrəvan şəhərindəki filialında atışma baş verib. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, naməlum şəxslərin açdığı atəş nəticəsində bir nəfər ölüb, iki nəfər isə yaralanıb. Məlumata görə, hücumu həyata keçirən polis polkovniki Daniel Danielyandır. O, yol polisində videomüşahidə kameraları tərəfindən aşkarlanan qayda pozuntularının qeydiyyatı şöbəsinin rəisidir.

Xəbərə görə, polkovnik Danielyan bıçaq, qumbara və tüfənglə silahlanaraq banka hücum edib, mühafizə xidmətinin iki əməkdaşını yaralayıb. Onlardan 2-si ölüb. Cinayətkar bankdan pulları götürüb və hadisə yerini tərk etmək istəyib. Lakin uzağa gedə bilməyib. Əməliyyat qrupu onun gizləndiyi rayonu mühasirəyə alıb, cinayətkar polkovnik müqavimət göstərib və polisi yaralayıb. Lakin onu neytrallaşdırmaq mümkün olub. Bu, Ermənistanda Nikol Paşinyanın başçılığı ilə başlayan etiraz hərəkatı fonunda ən səs-küylü cinayətdir. Polkovnik Danielyanın bankı soymaq cinayətini planlaşdırarkən Ermənistandakı inqilab fonunda yaranan xaosdan faydalanmaq istədiyi istisna deyil.

**Göründüyü kimi, hakimiyyəti əldən vermək istəməyən hakim partiya gah parlament səsverməsini pozur, gah da regionda gərginliyi tətikləyən addımlarla Paşinyanın hökumət başına gəlişini əngəlləməyə çalışır. Baxmayaraq ki, mayın 8-dəki parlament iclasında "heç bir problemin olmayacağı" barədə xəbərlər dövriyyəyə buraxılır...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

**Milli Məclisdə hərbi vəziyyət rejiminin tətbiq edilməsi halında məsuliyyətlərin müəyyən edilməsi ilə bağlı qanunvericilik dəyişiklikləri müzakirəyə çıxarılıb. "Hərbi vəziyyət haqqında" Qanunun tələblərinə əsasən, bir neçə qanunverici aktda dəyişiklik edilib. Bildirilib ki, dəyişikliklərin əsas məqsədi "Hərbi vəziyyət haqqında" Qanunun tətbiqi ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsidir.**

# "Hərbi vəziyyət haqqında" Qanuna dəyişiklik edildi - müharibə başlayacaq?

## **İsgəndər Həmidov:** "Ölkədə fövqəladə vəziyyət 1991-ci ildə elan edilmişdi, AXC hakimiyyəti dövründə heç bir hərbi vəziyyət elan olunmadı"

Məsələn, İnzibati Xətalar Məcəlləsinə hərbi vəziyyət rejiminin tələblərinin pozulmasına görə məsuliyyət nəzərdə tutan yeni maddələr və cərimələr əlavə olunur. Cinayət Məcəlləsinə edilən dəyişiklikdə isə cinayətin fövqəladə vəziyyət, təbii və ya digər ictimai fəlakət şəraitində, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi cəzanı ağırlaşdıran hal kimi göstərilib. Əmək Məcəlləsində "Hərbi vəziyyət dövründə səfərbərlik planlarına uyğun olaraq, əmək məzuniyyəti başqa vaxta keçirilə bilər" məzmununda əlavə nəzərdə tutulub.

Miqrasiya Məcəlləsinə təklif olunan düzəlişə görə, hərbi vəziyyət dövründə "Hərbi vəziyyət haqqında" Qanuna əsasən, vətəndaşların ölkədən getməsi və ölkəyə gəlməsi üçün xüsusi qaydalar tətbiq edilə bilər. Bu hal əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də aid edilir.

"Siyasi partiyalar haqqında" Qanuna əlavə edilən 16.4-1-ci maddədə bildirilir ki, hərbi və ya fövqəladə vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyaların fəaliyyəti hərbi və ya fövqəladə vəziyyət başa çatanadək dayandırıla bilər.



1990-cı illərdə Qarabağ savaşının getdiyi dönəmdə Azərbaycanda faktiki olaraq müharibə şəraiti olub. Lakin həmin ərəfələrdə hakimiyyətdə olan Azərbaycan Xalq Cəbhəsi hökuməti maraqlıdır ki, hərbi vəziyyət rejimi elan etməyib.

**1992-ci il mayın 16-dan 1993-cü il aprelin 16-na qədər Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsində çalışmış İsgəndər Həmidov "Yeni Müsavat"a həmin dövrlə bağlı danışıb. O bildirib ki, ölkədə fövqəladə vəziyyət yalnız sovet hakimiyyəti illərində olub. Həmin zaman isə xeyli məhdudiyyətlər tətbiq edilib:**

"İlk dəfə Azərbaycanda fövqəladə vəziyyət 1991-ci ildə oldu. Komendant saatı elan etdilər və şəhərdə fövqəladə vəziyyət elan etdilər. Həmin vaxtı ilk olaraq komendant bir rus generalı oldu. Onun ardınca da Ziya Bünyadovun oğlu Valeri Bünyadov komendant oldu. Bizim vaxtımızda ölkədə heç bir fövqəladə vəziyyət elan olunmayıb. Sovetin vaxtında tətbiq olunan komendant saatı ilə axşam saat 10-dan sonra çölə çıxmaq qadağan idi. Bundan əlavə şəhərdə maşın sürməyə də məhdudiyyət vardı. Ümumilikdə isə həmin zaman gediş-gəlişlə bağlı xeyli sayda məhdudiyyətlər tətbiq olunmuşdu. Respublikadan kənara çıxmağa isə məhdudiyyət qoyulmamışdı. Bununla yanaşı şəhərdə sərbəst toplaşmağa da qadağa var idi. İclaslara da icazə verilmirdi. Həmin dövrdə Azərbaycanda siyasi partiyalar mövcud deyildi. Azərbaycanda yalnız Kommunist Partiyası vardı ki, ona qarşı da duran dünyanın ən möhtəşəm təşkilatı olan Xalq Cəbhəsi vardı. Komendant saatı ərəfəsində də Kommunist Partiyasına hər bir şeyə icazə verilirdi. Yalnız bizə, Xalq Cəbhəsinə məhdudiyyətlər tətbiq olunmuşdu".

**İsgəndər Həmidov hesab edir ki, Ermənistanda vəziyyətin gərgin olduğu hazırkı məqamda Azərbaycan hərəkətə keçməlidir:**

"Ermənistanda vəziyyət ağırlaşdıqca, Azərbaycan bütün variantlara hazır olmalıdır. Heç olmasa 3-4 rayonu azad etsək, ermənilərin danışıq tonu və predmeti dəyişəcək. Ermənistan Respublika Partiyası bütünlüklə Paşinyanın əleyhinə səs verdi. Bununla da orada vəziyyət daha da pisləşdi. Sərkisyanın komandası Qarabağ erməniləridir, onların da döyüş hazırlıqlı insanları Qarabağdadır. Ola bilər ki, döyüşkən insanları geri çəksinlər. Yəni bununla da bizə meydan açılır. Elə şərait yaranır ki, biz ən azı Ağdamı, Füzulini, Qubadlını işğaldan azad edə bilərik. Sözsüz ki, bizə sona qədər müharibə aparmağa icazə verməyib, stol arxasına oturdacaqlar. Bu məqamda belə onların danışıq tərzi dəyişəcək. Azərbaycanda qeyri-normal bir tendensiya gedir. Deyirlər ki, Sərkisyan gedirsə, başqası gələcək, yaxşı olacaq. Bu yanaşma kökündən yanlışdır. Heç bir yaxşı hal ola bilməz. Paşinyan da çıxışı zamanı dedi ki, Rusiya ilə münasibətlərimizi daha da yaxşılaşdıracağıq. Yəni birmənalı şəkildə dedi ki, Rusiyanın adamıdır. Rusiyada da Putinin yaxın adamı bildirdi ki, Ermənistanda hakimiyyətə kim gələrsə, onunla əməkdaşlıq edəcəyik. Bu da Paşinyana bir mesaj idi ki, fəaliyyətə keçsin. Bütün bunlar onu deməyə əsas verir ki, ermənilərin düşüncəsi milli məsələdə heç də dəyişməyəcək. Ona görə də biz müharibəyə hazır olmalıyıq. Hərəkətə keçməsək, fürsəti əldən vermiş olarıq. Ümid edək ki, "Hərbi vəziyyət haqqında" Qanuna edilən dəyişiklik də onunla əlaqədardır".

❑ **Əlì RAİS,**
**"Yenì Müsavat"**

# MDB dağılır, bəs Azərbaycan nə etsin...

**27 ildir fəaliyyət göstərən Müstəqil Dövlətlər Birliyinin (MDB) əsas qurucularından olan Ukrayna bu qurumla bütün əlaqələrini dayandırır. Mayın 2-də Ukrayna Təhlükəsizlik Şurasının iclasında ölkənin MDB koordinasiya orqanlarında iştirakının dayandırılması haqqında qərar qəbul olunub.**

Ölkənin prezidenti Pyotr Poroşenko XİN rəhbərinə Ukrayna nümayəndələrinin MDB orqanlarından geri çağırılması haqqında sənəd hazırlamağı tapşırıb.

Qeyd edək ki, Rusiyanın 2014-cü ildə ərazisinə təcavüzündən sonra rəsmi Kiyev MBD-ni de-fakto tərk edib. Ondan 6 il öncə də buna oxşar hadisə yaşanıb. Belə ki, 2008-ci ilin avqustunda Rusiyanın Gürcüstana ordu yeritməsindən sonra rəsmi Tiflis MDB-dən çıxmaqla bağlı qərar verib.

Ekspertlər Kremlin "təlxəyi" funksiyasını yerinə yetirən Rusiya Liberal-Demokrat Partiyasının lideri Vladimir Jirinovskinin tez-tez MDB məkanında quberniyaların yaradılmasının vacibliyi barədə fikirlərinin təsadüf olmadığını bildirirlər. Əslində Rusiyanın da MDB-nin mənasız qurum olduğunu anladığı və bu birliyin timsalında yeni bir birlik yaratmaq niyyətində olduğu qeyd edilir.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev bildirdi ki, yarandığı ilk gündən MDB kağız üstündə olan bir qurum kimi tanınır:** "Siyasi məqsədlərlə yaranmış bu birliyə üzvlərin əksəriyyətinin könüllü olmadan qəbul olunması da sirr deyil. SSRİ dağılandan sonra Rusiya keçmiş respublikaları nəzarətində saxlamaq və gələcəkdə keçmişdə olduğu kimi iqtisadi və siyasi asılılığı geri qaytarmaq məqsədilə MDB-ni yaratdı. Onun istəyindən asılı olmayaraq proyekt iflasa uğradı. Amma yenə də MDB-ni qoruyub saxlamağa strateji və həyati məsələ kimi baxır. Bu illər ərzində heç bir dövlət açıq şəkildə ölü bir ittifaqdan çıxmağını elan etməyib. Çünki Rusiyanın buna yanaşması, verəcəyi açıq və gizli reaksiyalar öncədən məlumdur. Ukraynanın bu gün belə bir addım atması isə təəccüblü qarşılanmamalıdır. Birincisi, Rusiya və Ukrayna faktiki müharibə vəziyyətində olan, bir-birini düşmən gözündə görən dövlətlərdir. Mən deyərdim ki, bu qərar hələ gec verilib və bir neçə il bundan qabaq verilməli idi. Verilən qərarı hüquqi prosedurlarla sona çatdırarsa, digər dövlətlərin də oradan gələcəkdə çıxması üçün yaxşı president olar. Qurumun bir dəfəlik ləğvi isə Rusiyanın özünün gələcək durumundan və regiondakı ölkələrə təsir imkanlarının necə olacağından asılı olacaq. Jirinovskinin dedikləri öz fikirləri kimi təqdim olunsa da çoxdan bəllidir və onun kimi bir neçə siyasətçi var ki, Kremlin qeyri-rəsmi dilidirlər. Rəsmilərin deyə bilmədikləri ifadələri, proyektləri və təhdidləri 25 ildən artıqdır ki, bəslədikləri Jirinovskilərin vasitəsilə edirlər. İndi də demək istəyirlər ki, MDB-ni istəməyəcəyiniz halda hər hansı müstəqilliyiniz də olmayacaq. Odur ki, mən belə bəyanatlardan sonra Jirinovskinin və ya digərlərinin üzərinə getməyin və iz azdırmağın tərəfdarı olmamışam. Sifarişçi məlumdur. Bu o demək deyil ki MDB Rusiyaya lazım deyil, əksinə, indiki durumunda dünyadan təcrid olma təhlükəsinin başının üstünü aldığı vaxtda hava-su kimi lazımdır. MDB heç kimə hər hansı xeyri olmayan, perspektivlərindən isə danışmağa dəyməyən bir qurumdur. Eyni zamanda bəzi dövlətlər, o cümlədən Azərbaycan böyük ehtimalla hələlik Rusiyanın verəcəyi reaksiyadan ehtiyat etdikləri üçün analoji addımı atmırlar. Söhbət ola biləcək təxribatlardan və gözləmədiyimiz addımlardan gedir. Onsuz da fəaliyyətsiz , dişsiz bir ittifaqdır. Bu günə kimi bizə heç bir xeyri olmayıb. Onu nə qədər qorumağa çalışsalar da dağılmağa məhkumdur. Bu illər ərzində Azərbaycan Qərb dünyası ilə daha çox iqtisadi əlaqələr yaradıb və bu yaxınlaşmanı gələcəkdə siyasi-iqtisadi müstəviyə də keçirdə bilər. Belə əlaqələrin qurulması , inkişaf etdirilməsi intesivləşdikcə MDB-dən uzaqlaşmağımız da eyni sürətlə davam edər".



## **Elşən Mustafayev:** "Onu nə qədər qorumağa çalışsalar da dağılmağa məhkumdur"
## **Əhəd Məmmədli:** "MDB-də qalmağa məcburuq"

**Politoloq Əhəd Məmmədli mövcud olduğu illər ərzində MDB-nin heç bir müsbət töhfələr vermədiyini vurğuladı:** "Ukrayna çoxdan bu birlikdən çıxmalı idi. Hələ də Ukraynanın orda qalması anormal bir hal idi. Təcavüzə məruz qaldığı ölkənin, yəni Rusiyanın başçılıq etdiyi birlikdə Ukraynanın nə işi var? SSRİ dağılandan sonra MDB sırf Rusiyanın eqosunu təmin etmək üçün qurulan bir təşkilatdır. 27 ildə MDB-nin region dövlətləri üçün bir xeyri olmadı. Əksinə, illər keçdikcə bu birlikdə yer alan ölkələr arasında müharibələr, siyasi böhranlar daha da çoxaldı. MDB-dən istədiyini ala bilməyən Rusiya ardınca Avrasiya İttifaqını qurdu. Hələlik Rusiyadan ehtiyata görə MDB kağızda da olsa qalıb. Lakin Rusiya zəiflədikcə, regionda mövqelərini itirdikcə, MDB də bir təşkilat olaraq tarix olacaq. Azərbaycan Qarabağ məsələsinə görə MDB-yə daxil oldu və hələ də orada qalır. Başa düşülən mövqeydir. Rusiyadan çəkinirik, ona görə MDB-də qalmağa məcburuq. Lakin son 25 ildə MDB-də olmağımızın Azərbaycan üçün heç bir xeyri olmadı, Qarabağ problemi həll edilmədi. Bir sual ortaya çıxır ki, Azərbaycan niyə hələ də MDB-də qalıb? Onsuz da son illərdir Azərbaycanın bu qurumda fəaliyyəti formal xarakter daşıyır. Fikrimcə, Qarabağ problemini xeyrimizə həll edəndən sonra Azərbaycanı MDB ilə heç nə bağlamamalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

# Azərbaycan müxalifətindən Ərdoğana dəstək

## Ölkə müxalifətinin funksionerləri hesab edirlər ki, Ərdoğanın apardığı siyasət Azərbaycan üçün də faydalıdır

**Türkiyənin müxalif Cümhuriyyət Xalq Partiyası, İYİ Partiya, Səadət və Demokrat partiyaları arasında koalisiya yaradılması barədə razılıq əldə olunub. Dörd partiya yalnız parlament seçkisində birgə hərəkət edəcək. Prezident seçkisində isə hər partiya öz namizədini ayrı-ayrılıqda dəstəkləyəcək.**

Yaranan koalisiyanın adının "Demokratiya üçün Milli Birlik" və ya "Demokratiya Birliyi" olacağı gözlənilir. Məlumdur ki, bundan öncə AKP ilə MHP "Cümhur Birliyi" yaradıb. Bir araya gələn dörd müxalifət partiyasının "Cümhur Birliyi"nə qarşı mübarizə aparacağı deyilsə də, əksər ekspertlər müttəfiq siyasi qurumların şansını az görürlər.

Bununla yanaşı, müxalif partiyaların Türkiyə prezidenti postuna vahid namizəd irəli sürəcəkləri də istisna edilmir. Vahid namizədin adının yaxın günlərdə açıqlanacağı ehtimal olunur.

Məlumat üçün onu da qeyd edək ki, iyunun 24-də Türkiyədə növbədənkənar parlament və prezident seçkiləri keçiriləcək. Seçkilərə 11 siyasi partiya qatılacaq.

Azərbaycanda da hər zaman Türkiyədə gedən siyasi proseslər maraqla izlənilir. Qardaş ölkə ilə bağlı tez-tez Azərbaycan ekspertləri də açıqlamalar verir, orada baş verən hadisələrə münasibətlərini bildirirlər. O cümlədən ölkədə müxalifət nümayəndələri də çox zaman Türkiyədəki proseslərlə yaxından maraqlanır, qardaş ölkənin müxalifət nümayəndələri ilə görüşlər keçirirlər.

Bəs hazırkı seçkilər zamanı Azərbaycan müxalifət nümayəndələri Ərdoğanı, yoxsa müxalifətin yaratdığı qrupu dəstəkləyir?



Bu sualla bir neçə müxalif partiya sədrlərinə müraciət etdik.

**"Yeni Müsavat"a danışan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, Türkiyədə siyasi sabitliyin və təhlükəsizliyin tərəfindədirlər:** "İlk olaraq qeyd edim ki, bu, Türkiyənin daxili işidir. Mən Türkiyə vətəndaşı olmadığım üçün mövqe bildirməyim siyasi etika baxımından düzgün olmaz. Ancaq bir Azərbaycan türkü, Türkiyənin dostu olan dövlətin vətəndaşı kimi təbii ki, orada inkişafın, siyasi sabitliyin, təhlükəsizliyin tərəfindəyik. Ona görə də biz mümkün qədər seçkinin dinc, demokratik, azad və ədalətli şəkildə keçirilməsini və Türkiyə xalqının öz iradəsini azad şəkildə ifadə etməsini istəyirik. Türkiyə xalqı kimi seçəcəksə, onun seçiminə hörmətlə yanaşmalıyıq".

**VİP sədri Əli Əliyev də Rəcəb Tayyib Ərdoğanı dəstəklədiyini bildirib:** "Ərdoğanın hələlik hakimiyyətdə qalmasının tərəfdarıyam. Çünki onun başladığı işlər hələ ki məntiqi sonluğuna çatmayıb. Burada hakimiyyət dəyişikliyi kursun dəyişikliyinə gətirib çıxara bilər. Ona görə də hesab edirəm ki, həlledici dərəcədə güclü olmayan Ərdoğan hakimiyyətinin formalaşması məqsədəuyğundur. Bu, Türkiyə çıxarları üçün ən uyğun haldır. Təbii ki, Türkiyənin çıxarları həm də Azərbaycanın çıxarları deməkdir. Ona görə də bu həm də Azərbaycan üçün faydalıdır".

**ADP sədri Sərdar Cəlaloğlu da birmənalı şəkildə Ərdoğanı dəstəklədiyini bildirib:** "Təbii ki, Ərdoğanı dəstəkləyirəm. Birmənalı şəkildə bu, belədir. Onun apardığı siyasəti doğru hesab edirəm. Türkiyə bölgədə nə qədər güclü olacaqsa, Azərbaycan da bir o qədər daha ciddi müttəfiq əldə edəcək. Yəni Azərbaycan dövlətinin və xalqının maraqları Türkiyənin güclənməsini tələb edir. Ərdoğanın da siyasəti Türkiyənin bölgəsəl güc olması istiqamətindədir. Onun siyasəti həm də Azərbaycana aid olduğu üçün bunu dəstəkləyirəm".

**AĞ Partiyanın lideri Tural Abbaslı bildirib ki, onlar Türkiyə siyasətini yaxından izləyirlər:**

"Çünki orada baş verən istənilən siyasi hadisə bu və ya digər formada Azərbaycanın da siyasi həyatında əks olunur. Ona görə də istər-istəməz qonşu dövlətlərin siyasətini izləməyə məhkumuq. Nəzərə alsaq ki, bu Türkiyə kimi qardaş dövlətdir və bunu ikiqat yaxından izləyirik. Biz təbii ki, Ərdoğanı, onun siyasi və ideoloji kursunu dəstəkləyirik. Çünki partiyamızın xətti də Ədalət və İnkişaf Partiyasının ideoloji xətti ilə eynidir. Bu gün düşünürük ki, daha güclü Türkiyə üçün hazırkı iqtidar hakimiyyətdə qalmalı, başladığı işləri davam etdirməlidir. Təbii ki, bu, Türkiyənin daxili işidir. Ancaq biz də qardaş ölkə kimi Ərdoğana dəstək veririk".

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**

# Ərdoğana qarşı koalisiyanın elan olunması təxirə düşdü

## CHP Məhərrəm İncəni namizəd göstərir, iqtidar və müxalifət cəbhəsində birləşmələr davam edir...

**Türkiyədə 4 müxalifət partiyasının qurduğu seçki ittifaqının mayın 3-nə təyin olunan elan olunma mərasimi təxirə salınıb. BBC-nin məlumatına görə, təxirə salınmanın əsas səbəbi ittifaq anlaşmasının mətni üzərində razılaşmanın əldə olunmaması və partiyaların seçki hazırlıqları olub.**




Ancaq Səadət Partiyasının təmsilçisi BBC-yə deyib ki, ittifaqla bağlı hər hansı anlaşmazlıq yoxdur. Sadəcə, hazırda "kiçik detallar" üzərində danışıqlar davam edir. Ancaq "Hürriyet" qəzetinin məlumatına görə, seçki ittifaqının ictimaiyyətə açıqlanmasının təxirə salınmasının əsas səbəbi namizəd siyahısı ilə bağlı olub. Əsas problem isə Səadət və Demokrat partiyalarından olan namizədlərin CHP və İYİ Partiyanın hansı seçki dairələrdən irəli sürülməsi ilə bağlıdır. Gecikməyə səbəb olan daha bir detal kimi Səadət Partiyasının ittifaq anlaşmasını partiyanın ali qurumu sayılan "Ağ saçlılar" Şurasının müzakirəsinə təqdim etməsi qərarı göstərilir.

İlkin ehtimallara görə, bu həftəsonu sözügedən 4 partiyanın - CHP, İYİ Parti, Səadət və Demokrat partiyalarının liderinin və ya ittifaq mövzusunda anlaşmanı hazırlayan sədr müavinlərinin birgə konfransında elan ediləcək.

Bu arada Demokrat Partiyası 24 iyun seçkilərində Meral Akşenerin prezidentliyə namizədliyini dəstəkləmə qərarı qəbul edib. CHP-nin prezident seçkilərində namizədini mayın 3-də açıqlayacağı gözlənilirdi. CHP-nin qrup toplantısında çıxış edən partiyanın potensial namizədi hesab olunan İlhan Kəsici deyib ki, partiyanın prezidentliyə namizədi Məhərrəm İncə olacaq. Sitat: "Namizədimiz Məhərrəm İncə olacaq. Partiya funksionerləri artıq onun özü ilə danışıb".

**Adı namizəd kimi hallanan Məhərrəm İncə özü isə "Cümhuriyet" qəzetinə açıqlamasında deyib ki, belə bir qərar olarsa, qürur duyar:** "Atatürkün partiyasının üzvü olaraq Atatürkün əyləşdiyi kürsüyə namizəd göstərilməkdən qürur duyaram. Əlbəttə, qərarı sədrimiz və deputatlarımız verəcək. Həm partiyamız, həm də millətimiz üçün xeyirli olmasını arzu edirəm".

Artıq AKP də öz namizədini rəsmiləşdirib. Mayın 3-də hakim partiya fraksiyası toplantısında hazırkı prezident Rəcəb Tayyib Ərdoğan 316 səslə AKP-nin prezidentliyə namizədi elan olunub. Ərdoğanın namizədliyini irəli sürmək üçün Mərkəzi Seçki Qurumuna AKP sədrinin müavini və baş nazir Binali Yıldırımla birlikdə MHP sədri Dövlət Baxçalı birgə gedəcək. Cümə günü Ərdoğanın namizədliyi rəsmən irəli sürüləcək.

Böyük Birlik Partiyası da AKP və MHP-nin yaratdığı "Cumhur İttifaqı"na qoşulur. Bu barədə partiyanın sədr müavini Üzeyir Tunc məlumat verib. Tunc deyib ki, BBP qurumları seçkilərə AKP-nin siyahısı ilə girməklə bağlı qərar qəbul edib. Bu barədə qərar AKP-yə də bildirilib və 24 iyun seçkilərində BBP hakim partiyanın siyahısı ilə gedəcək.

Qeyd edək ki, mayın 3-də Türkiyə lirəsi növbəti "rekord"unu vurub. Bir dollar 4,23 lirə həddinə çatan Türkiyə valyutası sürətlə ucuzlaşmaqda davam edir. Qrup toplantısında çıxış edən baş nazir Binali Yıldırım deyib ki, kredit dərəcələndirmə şirkəti Standard & Poors Türkiyənin xarici valyuta krediti notunu aşağı salması "seçki prosesinə təsir etmək məqsədilə qurulmuş ssenaridir".

**Baş nazir deyib ki, bu addımlar Türkiyədə seçkilər öncəsi siyasi proseslərə təsir etmək, yəni dolayısı ilə iqtidara zərbə vurmaq məqsədi güdür. Sitat:** "Bir dərəcələndirmə qurumu heç bir proqramda olmadığı halda bir gecədən qəflətən Türkiyənin kredit dərəcəsini aşağı saldı. Səbəblərinə də baxırsan, ipə-sapa yatmayan şeylər. Türkiyə reallığı ilə uyğun gəlməyən, tamamən siyasi, əsas məqsəd seçki prosesində AKP-yə necə zərər verə bilərlər. Sizin verdiyiniz dərəcənin bizim üçün dəyəri yoxdur, bizim üçün qiymət, millətin verdiyi qiymətdir. 24 iyunda o qiymətin alınacağı gündür".

Baş verənlər göstərir ki, Türkiyədə bütün siyasi qurumlar 24 iyun növbədənkənar seçkilərinə ciddi şəkildə hazırlaşır, siyasi ittifaq və birliklərin qurulması ilə bağlı danışıqlar davam etdirilir. Bu hərəkətlilik həm iqtidar cəbhəsində, həm də müxalifət cəbhəsində sürətlənib. Belə məlum olur ki, hakimiyyət seçkilərə vahid namizədlə gedir. İqtidar koalisiyasının vahid namizədi Rəcəb Tayyib Ərdoğan olacaq. Müxalifət isə prezident seçkilərinə bir neçə namizədlə gedəcək.

Müxalifətin əsas namizədi İYİ Partiyanın sədri Meral Akşener, CHP-dən böyük ehtimalla Məhərrəm İncə, Səadət Partiyasından isə Təməl Karamollaoğlu olacaq. İdeoloji fikir ayrılığı, xüsusən də dindar mühafizəkar və sol cəbhəsi arasındakı kəskin rəqabət prezidentliyə vahid namizəd üzərində anlaşmağa imkan vermədi. İndi müxalifətin yeganə ümidi prezident seçkilərinin ikinci tura qalması, o cümlədən parlament seçkilərində əldə olunacaq üstünlükdür. Müxalifət bloku parlamentdə çoxluğu qazanarsa, bu, hakim koalisiya üçün böyük məğlubiyyət ola bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 96 (6985) 3 may 2018

# Sosial şəbəkələri bağlamaq çağırışları səngimir

## Ekspert: "Belə çıxır ki, interneti məhdudlaşdırmaq istəyənlər prezidentin siyasətinin əleyhinə də çıxırlar"

**Hakimiyyətə yaxın şəxslər sosial şəbəkələrə qadağa qoyulması və ya nəzarətin artırılması ilə bağlı vaxtarışı çağırışlar edir. Son olaraq YAP-çı deputat Hikmət Məmmədov sosial mediaya qarşı tədbir görülməsi haqda çağırışlar edib. Deputat bu haqda DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəhbərliyinə müraciət edərək bildirib ki, klassik mətbuatdan fərqli olaraq, sosial media insan alverini, uşaqlara fiziki təcavüzü təbliğ edir: "Ona görə də mütləq sosial mediaya qarşı tədbirlər görülməlidir".**

Xatırladaq ki, deputat Hadı Rəcəbli də vaxtaşırı bu mövzu ilə gündəmə gəlib. Deputat bu haqda danışarkən bildirmişdi ki, sosial şəbəkələr üzərindən Azərbaycan əleyhinə kampaniyalar aparıldığından sosial şəbəkələr bağlanılsın. Ötən il isə hakim partiyadan olan deputat Siyavuş Novruzov təkliflə çıxış edib bildirmişdi ki, "Facebook"a şəxsiyyət vəsiqəsi ilə girilsin. Deputat həmçinin vurğulamışdı ki, "internetdə hər kəs saxta profil açıb istədiyi fikri yazır, bunun qarşısını almaq lazımdır". Bu ilin fevral ayında, prezident seçkiləri ərəfəsində Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov da bildirmişdi ki, təşviqat prosesinin tənzimlənməsində sosial şəbəkələr problemlər yaradır.

Hökumət nümayəndələrinin ardınca sənətçilərdən də sosial şəbəkələrə qarşı tənqidlər gəlməyə başladı. Əməkdar artist, müğənni Aybəniz Haşimova da sosial medianın bağlanılmasını istəyən tanınmışların siyahısındadır. Bir müddət əvvəl müğənni bu haqda elə sosial şəbəkə vasitəsilə prezidentə müraciət etmişdi:

"İlham Əliyev cənablarından xahiş etmək lazımdır ki, internet portallarının hamısının bağlanılması haqqında qərar versin".

Məlumdur ki, ölkə başçısı İlham Əliyev isə bu məsələyə tamamilə başqa cür mövqe göstərib, dəfələrlə xarici səfərlərində, beynəlxalq konfrans və tədbirlərdə Azərbaycanda intermet azadlığı olduğunu vurğulayıb. Hələlik ölkəmizdə hansısa sosial şəbəkələrin bağlanılmasına rast gəlinməyib.

Bəs sosial şəbəkələrə qadağalarla bağlı çağırışlardakı motivlər nə qədər təhlükəlidir? Ümumiyyətlə, sosial mediaya qarşı tədbirlərin görülməsi necə tənzimlənir? Hansısa sosial şəbəkənin bağlanılması ölkəmizin nüfuzuna xələl gətirə bilərmi?

**Mövzu ilə bağlı "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Yeni Müsavat"a danışıb. Ekspert ölkəmizdə sosial şəbəkələrə qarşı tədbir görülməsi haqda çağırışları pisləyib:** "Zaman-zaman biz bu cür çıxışları eşidirk və çox qəribə də olsa sonradan bu cür açıqlamaları verən şəxslər təkzib verir deyir ki, "biz bunu bu şəkildə bildirməmişdik" və sairə. Düşünürəm ki, istənilən adam, xüsusən də deputatlar, qərar qəbul edilməsi prosesində iştirak edənlər bu cür çıxışlarda diqqətli və ehtiyatlı olmalıdırlar. Hansı ki, dövlət başçımız da dəfələrlə çıxışlarında vurğulayıb, həmçinin qanunvericilikdə də birmənalı şəkildə təsbit olunub ki, ölkəmizdə internet azaddır. Qanunvericiliyə uyğun olaraq cari ildə bəzi internet resursları bağlanılması ilə bağlı müəyyən dəyişikliklər olub. Yəni bu məsələ qanunvericiliyə uyğun olaraq aparılıb. Amma deyək ki, sosial mediada, internetdə hər hansı qanun pozuntuları varsa və buna görə interneti, sosial medianı bağlamaq kimi çağırışlar etmək yolverilməz haldır. O ki qaldı deputat Hikmət Məmmədovun dediyi məsələyə, əgər sosial mediada konkret olaraq hansısa qanun pozuntusu, qeyri-qanuni çağırış və ya informasiya olarsa, məsələ qanunvericiliyə əsasən tənzimlənir. Bizdə kütləvi informasiya vasitəsi ilə internet hüquqi baxımdan bərabərləşdirilib. Yəni KİV-də hansısa hadisə baş verirsə və onu tənzimlənmək prosesi necə aparılırsa, internetdə də o cür olur. Ona görə də hesab edirəm ki, deputatın konkret faktla, konkret dövlət orqanına müraciət etməsi normaldır, anlaşılandır. Yəni sosial media, internet azaddır deyib bundan sui-istifadə etmək də yolverilməzdir. Bəlli oyun qaydaları, qanunlar var, buna əməl etmək lazımdır.




Lakin o doğru deyil ki, bütün bunlara görə sosial medianı tamamilə bağlamaq, yasaq qoymaq lazımdır".

**Ekspert həmçinin qeyd edib ki, "sosial mediaya qarşı tədbir görmək, nəzarət edilməsi" ifadəsi doğru deyil:** "Sanki kütləvi informasiya vasitələrinə qarşı tədbir görülməlidir. Bu, necə ola bilər? Ona görə də bir daha qeyd edirəm ki, ifadələrdə ehtiyatlı olmaq lazımdır. Terrorçuluq, uşaqların hüquqlarının pozulması, qeyri-qanuni informasiyaların yayılması ilə bağlı məsələ olarsa, bu zaman konkret faktlar üzrə aidiyyəti orqanlar öz vəzifələrini icra etməlidirlər. İnternet, sosial media hazırda nəhəng şəbəkədir. Azərbaycanda da bu sahə son illərdə yetərincə inkişaf edib. Ölkəmizdə təxminən 3 milyon insan sosial şəbəkədən istifadə edir. Burada ictimai müzakirələr gedir, kimlərsə biznes qurub, dövlət qurumları vətəndaşlarla informasiya münasibətləri yaradıb, səhiyyə və mədəniyyət, bir sözlə, hər şey sosial şəbəkələrin üzərindədir. Artıq Azərbaycanın sosial mediası cəmiyyətin ayrılmaz tərkib hissəsinə çevrilib. Bunu necə qopardıb ata bilərik? Sadəcə, özümüz də onun qayğısına qalmalıyıq ki, burada hər şey yerində, qaydasında olsun ".

**Ekspert son dövlətlərdə sosial medianın ictimaiyyətə təsir imkanlarının hədsiz yüksək olduğunu diqqətə çatdırıb:** "Əlbəttə ki, sosial media cəmiyyətdəki əyri-əskiklikləri, qanunsuzluqları da göstərir. Ola bilər ki, bu fakt bəzilərinin xoşuna gəlməsin, çünki müəyyən maraqlı tərəflər var. Həmin maraqlı tərəflərə görə bəziləri istəyir ki, sosial mediada məhdudlaşdırmalar tətbiq edilsin, onlar da öz işlərində olsun".

**Politoloq Elxan Şahinoğlu isə məsələyə bu cür münasibət bildirib:** "Kimsə düşünürsə ki, sosial medianı məhdudlaşdırmaqla hansısa problemi həll etmək mümkündür, məncə, bu yanlış yanaşmadır. Dünya qloballaşıb, informasiya bir yolla ətrafa yayılıb və yayılacaq. SSRİ dövründə qadağalar ona gətirib çıxartdı ki, müstəqil düşünən insanlar xarici radiostansiyaları dinləməyə başladılar. Əlbəttə, mən də sosial şəbəkələrdə söyüş və təhqirlərin əleyhinəyəm və saxta profillər altında bunu yayanların hüquqi məsuliyyətə cəlb olunması mexanizmi üzərində düşünmək lazımdır. Ancaq bu, bütövlükdə sosial medianın məhdudlaşdırılması ilə nəticələnməməlidir. Əgər internet varsa, əlaqə imkanları da açıq saxlanmalıdır. Bu elə internetin əlifbasında yazılıb. Prezident İlham Əliyev hər çıxışında haqlı olaraq onunla fəxr edir ki, azərbaycanlıların mütləq əksəriyyətinin internetə çıxış imkanları var. Belə çıxır ki, interneti məhdudlaşdırmaq istəyənlər prezidentin siyasətinin əleyhinə də çıxırlar".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bitərəf deputatlar MSK-da təmsilçisiz qalıb

## Mikayıl Rəhimov: "MSK üzvünün dünyasını dəyişməsi halı ilk dəfə deyil, bundan əvvəl..."

**Mərkəzi Seçki Komissiyasının üzvü Azər Tağıyevin ötən həftə vəfatından sonra qurumun üzvlərinin sayı 17-yə enib. Seçki Komissiyasında boş qalan yerə təyinatın və ya seçkinin keçiriləcəyini Seçki Məcəlləsi tənzimləyir. MSK katibi Mikayıl Rəhimov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Mərkəzi Seçki Komissiyasına üzv təyinatı Milli Məclis tərəfindən edilir. Azər Tağıyev Mərkəzi Seçki Komissiyasında Milli Məclisdəki bitərəf deputatların təmsilçisi idi.**

MSK-da 6 nəfər parlamentdə çoxluqda olan partiyanı, 6 nəfər parlamentdə azlıqda olan partiyaları, 6 nəfər isə bitərəfləri təmsil edir. Mərhum Azər Tağıyevin yerinə təyinat olanda Milli Məclis bu paritetliyi gözləyəcək: "Yeni təyin olunan MSK üzvü parlamentdəki bitərəf deputatların təmsilçisi olaraq təyin olunacaq. MSK üzvünün dünyasını dəyişməsi halı ilk dəfə deyil. Bundan əvvəl MSK sədrinin müavini Svetlana Qasımova rəhmətə getmişdi. Onun yerinə də Milli Məclis yeni şəxs təyin eləmişdi. Yəni bu məsələ Milli Məclisin səlahiyyətindədir. Mərkəzi Seçki Komissiyasında boş qalan yerə təyinat məsələsinə nə vaxt baxılacağı parlamentdən asılıdır. Ümid edirəm ki, yəqin yaxın vaxtlarda, güman edirəm Azər müəllimin 40-ı keçəndən sonra təyinat olacaq. Seçki




Məcəlləsinin tələbinə görə, dairə seçki komissiyasının üzvü yerinə təyinat ən geci 1 ay ərzində həyata keçirilməlidir. Əgər seçki vaxtıdırsa, 10 gün ərzində boş qalan DSK üzvü yerinə təyinat olmalıdır. MSK ilə bağlı da belə bir məsələ əksini tapır. Nəzərə alsaq ki, hazırda seçkilər yoxdur, o halda milli mentaliteti də nəzərə alsaq güman etmək olar ki, təyinat Azər Tağıyevin 40-dan sonra həyata keçiriləcək".

**MSK üzvlərindən birinin yoxluğunun qurumun işinə mənfi təsir edib-etmədiyinə gəlincə, M.Rəhimov qeyd etdi ki, MSK-nın işi elə qurulub ki, bu cür hallar işin operativliyinə mənfi təsir eləmir. Sadəcə, səsvermə qaydasında müəyyən dəyişiklik olur:** "18 nəfər yox, daha az sayda MSK üzvü iştirak edirsə, müvafiq olaraq səsvermədə həlledici səsin miqdarı azalır. Çünki 18 nəfər iştirak etdikdə 12 səs həlledicidirsə, 17 nəfər iştirak edirsə, 11 səs həlledici olur".

**MSK katibi onu da dedi ki, Azər Tağıyev MSK-nın işində bir professional hüquqşünas kimi çox yaxından iştirak edirdi:** "O, professional titullu hüquqşünas idi. Uzun müddət Azərbaycan Vəkillər Kollegiyasına sədrlik etmişdi. Müstəqil Azərbaycanın Vəkillər Kollegiyasının qurulmasında əhəmiyyətli rolu olmuşdu. Azər Tağıyev savadlı, peşəkar, etimadlı Mərkəzi Seçki Komissiyası üzvü kimi yadımızda qalıb. Hüquqi məsələlərdə xüsusilə ardıcıl MSK üzvü idi. Bütün müzakirə olunan məsələlərdə öz ixtisasına uyğun təmkinlə münasibətini bildirən və bizim də etimadımızı qazanmış MSK üzvüydü. Təəssüf ki, son illər səhhətində problemlər yaranmışdı. Bir neçə dəfə həkimə müraciət etmişdi, müalicə alırdı".

Milli Məclisin mətbuat xidmətindən isə bildirildi ki, MSK-da boş qalan yerə təyinat məsələsi hazırda gündəliyə daxil edilməyib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# 7 min tələbə pulsuzluqdan təhsilini davam etdirə bilməyib

## Təhsil haqqını ödəyə bilmədiyi üçün ali məktəbdən xaric edilənlərin ilginc statistikası, çıxış yolları

**Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komitəsi də təhsil haqqını ödəmədiyinə görə ali məktəbdən xaric edilən tələbələrlə bağlı ölkə başçısı İlham Əliyevə xüsusi hesabat təqdim edib. Tələbə Qəbulu üzrə Dövlət Komitəsinin bir neçə gün əvvəl yaydığı açıqlamada bildirilirdi ki, 7 min tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə ali təhsilini davam etdirə bilməyib. Bu statistika son 3 ili əhatə edir.**

Sözügedən hesabatda təhsil haqqı probleminin həllinin vacib olduğu vurğulanır. Bu hesabat göstərir ki, dövlət qurumları da vəziyyətin acınacaqlı olmasının fərqindədir. Amma dollarla götürülən kreditlərdə heç bir güzəştə getməyən hökumətin tələbələrin təhsil haqqı məsələsində hansısa güzəştə gedəcəyi inandırıcı görünmür.

"Tələbə-məzun" dövlət elektron məlumat sisteminə 1992-2014-cü illər ərzində Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) keçirdiyi qəbul imtahanları nəticəsində tələbə statusu qazanmış 861767 nəfər, o cümlədən 550723 nəfər bakalavriat, 40026 nəfər magistratura səviyyəsi üzrə, 166678 nəfər tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş tələbə, 104340 nəfər ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş tələbə haqqında məlumat sistemə daxil edilib.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından verilən xəbərə görə, 8 oktyabr 2014-cü il tarixinə qədər təhsil müəssisələri tərəfindən sistemə daxil edilmiş məlumatların ümumi statistikasına əsasən, ölkədə 4700 əcnəbi və vətəndaşlığı olmayan tələbə, əlavə təhsil almaq istəyən 3506 şəxs ali məktəblərə qəbul olub. Bu müddətdə təhsil müəssisəsinin öz qəbulunun sayı 7122-dir. 22 il ərzində xarici təhsil müəssisələrindən 9115, ölkədaxili 5655 köçürmələr həyata keçirilib. Bundan əlavə, 7943 ixtisas dəyişmələri, 1463 ixtisas dəyişməklə ölkədaxili köçürülmələr, 4178 təhsilalma forması dəyişmələri, 648 təhsilalma forması dəyişməklə ölkədaxili köçürmələri icra olunub. Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ixtisas dəyişmələrinin sayı 30, dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ölkədaxili köçürmələrin sayı 23, akademik borca görə xaric edilmələrin sayı 6098, digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar xaric edilmələr sayı 5121, təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə xaric edilmələrin sayı 13307, təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə əlaqədar xaric edilmələrin sayı 4689 olub.

### Kimlər təhsil haqqından azaddır?

Təhsil haqqını ödəməkdən azad olanların siyahısını təqdim edirik:

2011/2012-ci tədris ilindən etibarən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları.

"Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamı.

Şəhid ailəsi statusunu almış ailənin üzvü.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının 3 sentyabr 1993-cü il tarixli Qanunu (maddə 3).

2014/2015-ci tədris ilindən etibarən:

"Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 18 mart 2014-cü il tarixli Sərəncamı.

2013/2014-ci tədris ilindən etibarən 18 yaşınadək hər iki valideynini itirmiş və yaxud bir valideyni vəfat etmiş, o biri valideyni I və II qrup əlil olan uşaqlar.

"Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu (maddə 14-8-1).

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli Qanunu (maddə 5).

### "Tələbələrin 70 faizi orta hesabla 2000 manat təhsil haqqı ödəyir"

Təhsil eksperti Kamran Əsədov **"Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda təhsil haqqını ödəməkdə çətinlik çəkən aztəminatlı ailələrdən olan tələbələrə uzunmüddətli güzəştli kreditlər verilir. Bunu Təhsil Nazirliyinin təşəbbüsü ilə BDU, Dillər, Pedaqoji, Neft və Sənaye, Texniki, Dövlət İqtisad, Memarlıq və İnşaat, Bakı Slavyan, Gəncə və Sumqayıt Dövlət universitetlərinin təsis etdiyi "Maarifçi" Tələbə Kredit Fondu reallaşdırır. Fonda Azərbaycan vətəndaşı olan, təsisçi universitetlərin birində təhsil alan və təhsilini davam etdirmək üçün maliyyə yardımına ehtiyac duyan tələbələr müraciət edə bilərlər:** "Onların yaşı 25-dən çox, ailəsinin kredit borcu, ailə gəliri il ərzində 10 min manatdan çox olmamalıdır. Danılmaz faktdır ki, hazırda təhsil haqqını ödəməkdə çətinlik çəkən çoxlu tələbə var. Azərbaycanda hazırda fəaliyyət göstərən 50-dən çox ali təhsil müəssisəsində 160 mindən çox tələbə təhsil alır ki, onların da 70 faizi öz vəsaitləri hesabına, yəni ödənişli əsaslarla təhsil alır. Xoşagəlməz məqam ondan ibarətdir ki, ölkəmizdəki təhsil ocaqlarının ixtisas üzrə ortalama təhsil haqqı 2 min manat təşkil edir. Hətta bəzi ixtisaslar üzrə bu rəqəm 6500, 5000, 4300 manat təşkil edir ki, bu məbləğin də ödənilməsi hər insan üçün asan deyil".

**Müsahibimiz qeyd etdi ki, məhz bu səbəbdən son 5 il ərzində 7 min şəxs təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsilini yarımçıq qoyub, ali təhsil almaqdan imtina edib. Ekspertin xatırlatmasına görə, ölkədə ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqlarının ödənilməsi üçün 2015-ci ildə "Maarifçi" Kredit Fondu yaradılıb. Amma bu təşkilat cəmi 200 nəfər tələbəyə təhsil haqlarının ödənilməsi üçün güzəştli şərtlərlə kredit verib ki, bu da olduqca az rəqəmdir:** "Ona görə də hesab edirəm ki, bu sahəyə iri şirkətlər, özəl sektorun nümayəndələri də qoşulmalıdır və özləri üçün lazım olan kadr potensialının gücləndirilməsində maraqlı mövqelərini ortaya qoymalıdırlar. Xoşagəlməz tendensiya ondan ibarətdir ki, ali məktəblərin birinci kursuna daxil olmuş şəxslərdən universitetin təhsil haqqı tam şəkildə tələb olunur. Bu da tələbələrin təhsil almasına mane olur".





**Kamran Əsədov:** "Bu sahəyə iri şirkətlər, özəl sektorun nümayəndələri də qoşulmalıdır"

### Bakıda pullu oxumaqdansa, Avropada pulsuz təhsil seçimləri...

Bir çox Avropa ölkələrində də dövlət ali məktəblərində təhsil pulsuzdur. Özəl ali məktəblərdə təhsil alanlar üçün isə xüsusi imtiyazlar nəzərdə tutulur. Məsələn, Almaniyada ali məktəblərin əksəriyyəti pulsuz təhsil verir. Özəl ali məktəblərin təhsil haqqı isə 500-1000 avro arasındadır. Əlillik dərəcəsi olan tələbələr isə təhsil haqqından azaddır. Ailəsinin maddi durumu aşağı olan tələbələr də təhsil haqqı ödəmir. 14 yaşınadək övladı olanlar, çoxuşaqlı ailələrin uşaqları və xüsusi istedadı olanlar da özəl ali məktəblərdə təhsil haqqından azaddır. Hətta ailə üzvlərindən biri ağır xəstə olanlar belə, təhsil haqqından azaddır. Həmçinin tələbələrə kreditlə təhsil almaq imkanı verilir. Belə ki, tələbə təhsil haqqını ali məktəbi bitirib işlə təmin edildəndən sonra ödəyə bilər.

Fransada təhsil sisteminə dövlətin çox böyük dəstəyi var. Görünür, məhz bu səbəbdən də təhsil haqqı kifayət qədər aşağıdır. Bu ölkədə əksər ali məktəblərdə bir illik ödəniş 135-700 avro arasında dəyişir. Hətta nüfuzlu Sarbonna Universitetində illik təhsil haqqı 800 avrodan yüksək olmur. Üstəlik, bu ölkədə xüsusi təqaüd proqramları mövcuddur və 350 avrodan aşağı təqaüd yoxdur.

Vətəndaşlarına pulsuz ali təhsil verən ölkələr arasında Norveç və Finlandiyanı da göstərmək olar. Bu ölkələrdə dövlətin aylıq hər bir tələbə üçün çəkdiyi xərc isə 500-900 avro həcmində qiymətləndirilir. Tələbələr yataqxana və pulsuz yeməklə də təmin edilir.

Hollandiyada ali təhsil pulsuz olmasa da, universitetlər çoxlu sayda qrantlar nəzərdə tutur. Hətta tələbənin aldığı təqaüdlə təhsil haqqını tamamilə ödəmək mümkündür.

Ali təhsili pulsuz olan ölkələr arasında həmçinin İsveç, Danimarka və Çexiyanı göstərmək olar. Qeyd etmək yerinə düşər ki, Avropa ölkələrində orta aylıq əmək haqqı 3 min avrodan az deyil.

### Amerika təhsil xərclərini azaldır, Hollandiya konkret şərtlər qoyur

ABŞ-da ali təhsil pulludur. Ancaq minimum əmək haqqı 4 min dollar olan bu ölkədə təqaüd proqramları tələbələrin xərclərini 80%-ə qədər azaldır. Belə ki, təqaüd alan tələbə hətta təhsil haqqı ilə bağlı güzəşt də əldə edə bilir. Eyni zamanda ABŞ-da tələbələr komfortlu yataqxanalarla təmin edilir. Təhsil müddətində onlar dövlətin hesabına yüksək səviyyəli tibbi xidmətdən istifadə edə bilər. Həmçinin hər bir tələbə kitabxana, idman zalları, kompüter laboratoriyalarından pulsuz istifadə etmək hüququ əldə edir. Onların sərəncamında istirahət mərkəzləri və avtomobil dayanacaqları da olur.

Hollandiyada təhsil müəssisələrinin 70 faizi özəl, 30 faizi dövlətə məxsusdur. Buna baxmayaraq, dövlət bütün təhsil müəssisələrinin tədris proqramları üzərində nəzarəti həyata keçirir. Hollandiyanın Təhsil, Mədəniyyət və Elm Nazirliyi mütəmadi olaraq ölkənin təhsil sisteminin monitorinqini aparır və standartları müəyyən edir. Bu isə öz növbəsində bütün məktəb və universitetlərdə təhsilin yüksək səviyyədə aparılmasını təmin edir.

Hollandiya ingilis dilində təhsil təklif edən ilk qeyri-ingilisdilli ölkədir. Bu ölkənin ali təhsil müəssisələri ingilis dilində təxminən 1150 tədris proqramı təklif edir. Onların böyük əksəriyyəti bakalavr və magistr proqramları, qalanları isə qısamüddətli kurslar və ixtisasartırma proqramlarından ibarətdir.

Ölkənin ilk ali təhsil müəssisəsi olan Leyden Universiteti 1575-ci ildə yaradılıb. Hollandiyanın 14 dövlət universitetinin 10-u "Times Higher Education World University Rankings"in hesabatında dünyanın ən nüfuzlu 200 universiteti arasında qərarlaşır.

Kiçik ölkə olmasına baxmayaraq, Hollandiyanın kimya, fizika, tibb, iqtisadiyyat və sülh sahələri üzrə 18 Nobel mükafatçısı var. Onlardan 1-i Nobel sülh mükafatı, 9-u fizika, 3-ü kimya, 3-ü tibb, 2-si isə iqtisadiyyat sahələri üzrədir. Ölkədə fəaliyyət göstərən 11 Beynəlxalq Təhsil İnstitutu digər ali təhsil müəssisələrindən fərqli olaraq, yalnız bakalavr proqramları təklif edir. Hər il bu institutlara təxminən 13 min əcnəbi tələbə qəbul olur. Bu təhsil ocaqlarında təhsil müddəti 18 ay davam edir.

Hazırda Hollandiyada dövlət tərəfindən tanınmış 14 klassik universitet fəaliyyət göstərir. Onlardan üçü (Delft, Tvent və Eyndhofen universitetləri) texniki ali təhsil müəssisələridir. Bundan əlavə, ölkə ərazisində 42 ali peşə təhsili universiteti mövcuddur. Universitetlər əsasən tələbələrin (6 mindən 30 minədək) sayına görə fərqlənir. Ümumilikdə Hollandiya ali təhsil müəssisələrinə ildə təxminən 185 min tələbə qəbul olunur.

Onu da qeyd edək ki, digər ölkələrdən fərqli olaraq, Hollandiyada nüfuzlu universitet anlayışı yoxdur. Ölkənin bütün universitetlərinin diplomu eyni dəyərə malikdir və digər ölkələr tərəfindən qəbul edilir. Bu səbəbdən də universitetlər məşhurluğuna görə deyil, tələbənin yiyələnmək istədiyi ixtisasa uyğun olaraq seçilir.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 97 (6986) 4 may 2018

# Nübar meyvələr hamının cibinə uyğun deyil

**Artıq kənd təsərrüfatı bazarlarına yeni məhsullar çıxarılıb. Bu isə qiymətlərdə ciddi dəyişikliklərə səbəb olub. Köhnə məhsullara tələbatın azalması ilə qiymətlər kəskin eniş edib. Yeni məhsullar isə əksinə, baha satılır. Səbəb tələbatın artması müqabilində yeni məhsulların hələ bol olmamasıdır. Yüksək qiymətlər xüsusən nübar meyvələrdə hiss olunur. Dad və keyfiyyət baxımından hələ tam olaraq formalaşmasa da alça, çiyələk və sair nübar meyvələr baha satılır.**



## Çiyələk 3-5 manat, alça 5-10 manat...

Satıcılar isə bahalaşmanın səbəbini həm məhsulun tarladan bazara qədər bir neçə əl dəyişdirməsi, həm də daha çox ixraca yönəldilməsi ilə əlaqələndirirlər.

**Asif** adlı satıcı deyir ki, ötən illə müqayisədə meyvə və tərəvəz məhsulları çox bahadır: "Bahalaşma bazardakı satıcılardan asılı deyil. Bu məhsullar 3-4 alverçinin əlindən çıxır. Hər biri gəlir üçün malın üstünə bir qədər qoyur. Nəticədə piştaxtaya çıxana qədər bahalaşır. Ümumiyyətlə, bu sahəyə nəzarət yoxdur. Fermerin özü məhsulu bazara çıxartsa, bu daha ucuz olar".

**Satıcılar deyir ki, ötən illə müqayisədə ən çox tərəvəzlərdən pomidor və badımcan bahadır:** "Ötən il bu ərəfədə ən yaxşı pomidoru 1.50 manata, badımcanı isə 1-1.50 qəpiyə alardıq. İndi isə qiymətlər iki dəfə yüksəkdir. Nübar meyvələrdən alça, çiyələkdən isə danışmayaq. Ötən illə müqayisədə çox bahadır. Ən ucuz alça 6 manat, çiyələk isə 3 manatdan başlayır".

Biz də bazarda apardığımız müşahidə zamanı tərəvəz məhsullarından pomidorun, badımcanın, nübar meyvələrdən alça və çiyələyin qiymətinin yüksək olduğunu müşahidə etdik. Çiyələyin 1 kiloqramının qiyməti 3-5 manat, alçanın qiyməti isə 5-10 manata təklif olunur. Göyçə alçanın kiloqramı 7-10 manata satılır. Təbii ki, bundan daha ucuz satılan məhsullar da var ki, onları keyfiyyət baxımından arzuolunan hesab etmək olmaz.

Meyvələrdən fərqli olaraq, tərəvəzlərin, əsasən də soğan və kartofun qiymətində xeyli ucuzlaşma var. Söhbət köhnə məhsullardan gedir. Təqribən iki həftə öncə "8-ci kilometr bazarı"ndan hazırladığımız reportaj zamanı ötən ildən qalma kartof və soğanın kəskin bahalaşdığını yazmışdıq. O zaman piştaxtada soğanın kiloqramı 80 qəpik, kartof isə 80-1.20 manat civarında idi. Bugünkü bazarda isə təzə soğanın topdan satışı 45 qəpik, pərakəndə satışı isə 50-55 qəpik civarındadır. Kartofa gəlincə, qiymətlər müxtəlifdir. 50 qəpikdən başlayaraq, 80 qəpiyə qədərdir. Təzə kartofun qiyməti isə 1 manatdan başlayır.

**Satıcıların sözlərinə görə, ucuzlaşmaya səbəb yeni məhsulun bazara çıxmasıdır:** "Kartofun ucuzlaşması yeni məhsulun satışa çıxması ilə bağlıdır. Ola bilər ki, qiymətlər bundan sonra da bir qədər də ucuzlaşsın. Alıcılar daha çox təzə məhsul almağa üstünlük verirlər. Bu səbəbdən də alverçilər köhnə kartofları ucuz qiymətə satmağa məcbur olurlar. Ümumiyyətlə, rayon yerlərində də kartof ucuzlaşıb. Yeni məhsulun bazara çıxması kartofla yanaşı soğanın da qiymətinə təsir edib. Bazarda köhnə soğana az rast gəlmək olur".

Digər yerli məhsullara gəlincə, kökün, almanın, kələmin, çuğundurun qiymətlərində ciddi bir bahalaşma yoxdur. Alma uzun müddət soyuducu anbarlarda saxlanıldığından, bu xərclər də məhsulun üzərinə gəlir və bazarda keyfiyyətindən asılı olaraq 50 qəpik-2 manata satılır.

Portağal, daş armudu, mandarin, kivi və digər subtropik meyvələrin qiymətləri dəyişməz olaraq qalıb. Bəzilərinin qiymətlərində enmə müşahidə edilir. Portağal 1.50 qəpik, mandarin 2-2.50 qəpik, armud 4 manat, kivi 2 manatdır. Bir müddət öncə 3 manata satılan bananın kiloqramı isə 2.40 manata düşüb.

**Kənd təsərrüfatı sahəsi üzrə ekspert Müslüm İbrahimov da bildirdi ki, bazara çıxarılan təzə məhsullarda qiymət artımı müşahidə olunur:** "Yeni məhsullar satışa çıxarılsa da, kənd təsərrüfatı məhsullarına olan tələbatı tam ödəmir. Alıcılar isə köhnə məhsulları almaq istəmirlər və nübar məhsullarına üstünlük verirlər. Tələbatın artması qiymətin də yüksək olmasına gətirib çıxarır. Köhnə məhsullarda isə proses əksinə baş verir. Bir neçə həftə öncə bahalaşan ötən ildən qalma məhsullar indi kəskin ucuzlaşıb, çünki onlara tələbat azalıb. Satıcılar isə əllərində olan köhnə məhsulu ucuz satıb qurtarmaq istəyirlər. Bilirlər ki, bir müddətdən sonra onlara, ümumiyyətlə, tələbat olmayacaq. Hazırda kənd təsərrüfatı bazarları belə bir keçid dövrünü yaşayır".

**Ekspertin sözlərinə görə, bazardakı qiymətlərə idxal-ixrac faktorları da təsir edəcək:** "Digər ölkələrdə, xüsusən də Rusiyada yeni məhsullara tələbat artıb. Azərbaycanlı fermerlər məhsullarını Rusiya bazarına ixrac edib daha baha satmaqda maraqlıdırlar. Ölkə siyasətində də qeyri-neft sektorunda ixracın artması prioritetdir. Bu isə daxili bazarda kənd təsərrüfatı məhsullarının qiymətlərində tarazlığın daha gec yaranmasına səbəb olacaq. Ancaq digər bir tendensiya da odur ki, bizə qonşu olan İran və Türkiyə kimi ölkələrdə aqrar məhsulların istehsalı daha kütləvi xarakter daşıyır və qiyməti də nisbətən ucuz başa gəlir. Bu baxımdan həmin ölkələrdən idxalın həyata keçirilməsi də gözlənilir. Bazardakı qıtlıq bu ölkələrdən gətirilən məhsullar hesabına aradan qaldırıla və qiymətlər optimallaşa bilər. May və iyun ayı elə bir dövrdür ki, bazarlarda adaptasiya prosesi gedir. Bir tərəfdən ötən ildən anbarlarda saxlanılan məhsullar ucuzlaşır, digər tərəfdən az həcmdə ancaq yüksək qiymətə bazara çıxan məhsullara tələbat artır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**







# Bakinin mərkəzindəki beton sədlərin sökülməsi ləngiyir

## Bakı Şəhər Halqası vətəndaşlara xəbərdarlıq etdi: "Əməl etməyən cəzalandırılacaq"

**Aprelin 27-29-u tarixlərində Bakı üçüncü dəfə "Formula-1" Azərbaycan Qran-Prisinə ev sahibliyi etdi. Gərgin keçən yarışmanın sonunda "Mercedes" komandasının pilotu Lyuis Hemilton Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran Prisinin qalibi oldu. Yarış ciddi qəzalarla da yadda qaldı. Belə ki, Daniel Rikkiardo, Maks Ferstappen (hər ikisi "Red Bull Racing"), Esteban Okon ("Force India"), Valtteri Bottas ("Mercedes"), Sergey Sirotkin ("Williams"), Niko Hülkenberq ("Renault") və Romen Qrojan ("Haas") finiş xəttini keçə bilmədilər.**





Yarış günlərində Bakı bulvarında da həm yerli, həm də xarici izləyicilərin istirahətləri üçün əyləncəli proqramlar təşkil olundu. Eyni zamanda 3 gün ərzində hər axşam, yarışdan sonra "Crystal Hall"da xarici ulduzların konsertləri keçirildi.

Bütün bunlar "Formula-1" həvəskarlarının ürəyincə oldu. Yayılan rısmi məlumatlara görə, yarışmaya və təşkil olunan konsertlərə ümumilikdə 94 min tamaşaçı baxıb. Bu isə ötən illə müqayisədə tamaşaçı sayında 31, bilet satışında isə 21 faiz artım deməkdir. Bu il satılan biletlərin 77 faizi yerli azarkeşlərin payına düşür.

"Formula-1" üzrə dünya çempionatının 4-cü yarışında iştirak etmək üçün Bakıya gələn əcnəbi azarkeşlərin sayı ötən illə müqayisədə 31 faiz artıb.

"Formula-1" bolidlərinin hərəkət etməsi üçün hazırlanan xüsusi yolun - Bakı Şəhər Halqasının müəllifi Herman Tilke idi. Bir dövrənin uzunluğu 6 kilometrdən çoxdur.

Trek Bakı şəhərinin ən çox istifadə olunan mərkəzi küçələrindən keçirdi. Elə məhz bu məqam bir çox şəxslərdə "Formula-1" yarışlarına qıcıq yaradıb. Sosial şəbəkələrdə insanlar daha çox yolların bağlı olmasından şikayətlənirlər.

Yarışın bitməsindən artıq 5 gün vaxt keçib. Bəs yollarda vəziyyət necədir?

"Yeni Müsavat"ın əməkdaşı vəziyyətlə maraqlanıb. Müşahidə etdik ki, avtomobillərin hərəkəti bərpa olunub, istiqaməti dəyişdirilən avtobuslar yenidən əvvəlki xətt üzrə hərəkət edirlər. Lakin küçələrdə hələ də beton sədlər, təhlükəsizlik torları qalmaqdadır.

Ən çox istifadə olunan "İstiqlaliyyət" küçəsində "Formula 1"lə bağlı elan lövhələri söküləb. Lakin səkinin ortasından çəkilən təhlükəsizlik toru hələ də qalmaqdadır. Bu isə piyadaların gediş-gəlişinə mane olur. Piyadalar yolu gedən zaman çətinlik çəkdikləri üçün mövcud durumdan narazılıqlarını bildirirdilər.

Nizami küçəsi ərazisində isə "Formula-1"lə bağlı elan lövhələri, ötən həftə olan konsertlərin plakatları hələ də sökülməyib. Lakin müşahidə etdik ki, artıq ərazidə qurulan tibb məntəqələri, sanitar qovşaqlar sökülüb. Qoşa qala qapısının önündə isə yalnız piyadaların rahat keçməsini təmin etmək üçün bir neçə beton səddin yeri dəyişdirilib. Digər qoruyucu torlar, beton sədlər yerində qalıb. Ərazidə olan yerüstü keçidlər də hələ sökülməyib. Onların sökülməsi istiqamətində hansısa işin getdiyini müşahidə etmədik. Flarmoniyanın qarşısında və ümumilikdə Neftçilər prospektində yerləşən tribunalar, oturacaqlar isə artıq sökülüb. İnsanların ən çox istifadə etdiyi "Sahil" bağının qarşısında, Axundov adına Mərkəzi Kitabxananın ətrafında olan beton sədlər də yerindən tərpədilməyib. Burada da yalnız bəzi yerlərdə bir qoruyucu sədlərin yeri dəyişdirilib ki, piyadalar rahat şəkildə yollarına davam edə bilsinlər.

Bundan əlavə, müşahidə yerləri, yarışla bağlı reklam, elan lövhələri hələ də götürülməyib.

Məsələ ilə bağlı Bakı Şəhər Halqası aşağıdakı məlumatı yayaraq, vətəndaşlara müraciət edib: **"Böyük məmnuniyyətlə diqqətinizə çatdırmaq istərdik ki, göstərdiyiniz anlayış və dəstək sayəsində biz növbəti dəfə "Formula-1" çempionatının möhtəşəm yarışına ev sahibliyi etdik.**

**Artıq biz yarış başa çatdıqdan dərhal sonra yarış məkanında olan bütün tikililərin sökülməsi prosesinə start verdik və tezliklə birlikdə gözəl Bakımızın mərkəzi küçələrinin əvvəlki görkəminə şahid olacağıq.**

**Hazırda söküntü işlərini sürətlə davam etdiririk və bu prosesdə üzləşdiyimiz bəzi məqamlar bizi ciddi narahat etməkdədir.**

**Nəzərinizə çatdırmaq istərdik ki, yarış məkanına aid bütün tikililər və küçələrin ətrafına quraşdırılmış avadanlıqlar Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) şəxsi mülkiyyətindədir. Bu əmlaka hər hansı bir şəkildə zərər vermək və ya ona sahib olmağa cəhd etmək qanunla qadağandır və buna əməl etməyənlər barəsində əlaqədar tədbirlər görüləcəkdir".**

❑ **Əli RAİS, Fotolar müəllifindir**

MÜSAVAT
N 97 (6986) 4 may 2018




# Həqiqi hədəfi bilmək uğur yolunu labüd edir



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Artıq bir neçə bəhsdir ki, mövzumuz İslamda müvəffəqiyyətə çatmağın açarları ilə bağlıdır. İndiyə qədər toxunduğumuz məsələlərdən biri - İlahi tofiqatın olması ilə bağlı idi. İlahi tofiqat olmasa, insan həqiqi müvəffəqiyyətə çata bilməz.**

İlahi müvəffəqiyyətlə materialistik müvəffəqiyyəti bir-birindən ayıran mühüm nöqtələrdən biri məhz budur. İnsan zahirən ola bilər ki, müvəffəqiyyətə çatmış görsənsin, amma əslində bu, əsla heç müvəffəqiyyət deyil. Müvəffəqiyyət o zaman olur ki, həmin uğur İlahi tofiqatla yoğrulmuş olsun.

İlahi müvəffəqiyyəti ayırd etmənin yolu budur ki, insan öz bəndəlik durumuna nəzər salsın. Əgər zahiri uğurlara çatıb, amma ibadətlərinə, vacibatlarına, xeyir əməllərə tərəf hərəkət etməsi zəifləyibsə - həmin uğur materialistik uğur kriteriyalarını aşmayıb.

Həqiqi uğura çatmaq üçün gərəkən ikinci amil kimi təqvalılığı qeyd etdik. İslamın nəzərində müvəffəqiyyətin əsas açarlarından biri - təqvadır. Təqvasız nəticə, uğur - həqiqi uğur sayılmır. Bir kəs uğurlar əldə etdiyi zamanda sübh namazlarının qəzaya getdiyini müşahidə etsə, deməli, o, Allah istəyən uğura çatmayıb. Uğur odur ki, insanın müvəffəqiyyətləri həm də təqvalı durumu ilə həmahəng olsun.

Uğura çatmaq üçün zəruri olan şərtlərdən üçüncüsü kimi fürsətləri qeyd etdik. İnsan gərək fürsətləri tanısın, onları qənimət bilsin və fürsətlərə nemət kimi baxsın.

### Hədəfsiz bir durum - mükəlləfiyyətsiz bir durumdur

Uğura çatmağın ən önəmli açarlarından biri də doğru hədəfin müəyyən edilməsidir. Həqiqi uğura çatmaq üçün hədəfin müəyyən edilməsi mövzusunda danışanda görəcəyik ki, elə müasir dünyanın da uğur haqqında təqdimatlarında hədəfin müəyyən edilməsi əsas yerlərdən birini tutur. Amma, İslamın nəzərində hədəfin müəyyən bir nuraniyyəti var, materialistik anlamda isə hədəf çılpaq bir anlamdadır.

Uğura çatmaqda hədəfin önəmi niyə bu qədər yüksəkdir? İnsan iradəvi bir həyat yaşamaq istədikdə, əgər hədəfini müəyyən etməsə, mahiyyətcə iradəvi yaşaya bilməz. Seçimli yaşayışın, iradəvi yaşayışın ən başlıca amili - hədəfin olmasıdır.

İnsanın qəflət halı nəyə görə təhlükəlidir, nəyə görə bu qədər pisdir? Çünki insan qəflətdə olanda hədəfsiz olur. Bütün faciələr məhz insan hədəfsiz yaşayan zaman baş verir. Hədəfsiz vəziyyətdə insan iradəsiz, ixtiyarsız və seçimsiz durumda olur. Hədəfi olmayan insan böyük yanlışlıqlara yol verə bilir. İnsanın xoşbəxtliyinin, həyatının məna yükünə malik olması hədəfdən keçir. Hədəf aydın olduqda, qarşıdakı üfiqlər aydın olur, qarşıdakı üfiq aydın olanda isə insanda bir aramlıq, əmin-amanlıq hissi olur. Bu insanın bütün nigaranlıq və narahatlıqları aradan gedir. Əksinə, hədəfsizlik insanda bir narahatlıq, qeyri-müəyyənlik vəziyyəti yaradır.

Deməli, insanın özünü mükəlləf hiss etməsi üçün, öz vəzifəsini tapması üçün, Allah qatında öz mükəlləfiyyətini icra etməsi üçün hədəfinin olması mütləqdir. Hədəfsiz bir durum - mükəlləfiyyətsiz bir durumdur.

### İnsan hədəfli yaradılmışdır

İnancımızın nəzərinə görə, heç bir varlıq hədəfsiz yaradılmayıb. Rəbbimizin hikmət sifətinə əsasən, hər bir yaranmış varlığın yaradılışında bir hədəf var. Həzrət Əmirəlmömininin (ə) mübarək bir buyuruşunda da qeyd edilir ki, "Heç bir varlıq hədəfsiz və əbəs yerə yaranmayıb".

Mühüm odur ki, biz insanlar öz yaradılışımızın hədəfini anlayaq, niyə yaradılmağımızın mahiyyətinə varaq.

### Hədəflərin hamısına çatmaq zatən mümkün deyil

Mühüm nöqtələrdən biri budur ki, insanın həyatında hədəf və arzuları çox ola bilər, amma insanın həyatındakı bütün hədəflərinə və arzularına çatması mümkün deyil. Hətta çox bərəkətli və uzun olsa da, ömür çox qısadır. Arzular çox, çatmaq istənilən mövzular çox, hədəflər çox, amma hamısına çatmaq mümkün deyil. Deməli, labüddür ki, biz bu hədəflər içərisində əhəmiyyətinə, dəyərliliyinə, səmərililiyinə, dəyər yükünə görə ən mühümlərini müəyyənləşdirək.

Hədəf bəhsində önəmli nöqtələrdən biri budur ki, mühüm və ən mühüm hədəflərimizi müəyyən etməyi bacaraq. Həzrət Əli (ə) buyurur: **"Bir kəs ki, mühüm olmayan işlərlə məşğul olar, daha mühüm məsələləri zay edər".** Bir insan ola bilər desin ki, mən hər bir işlə məşğul olmaq istəyirəm, ürəyim istədiyim işləri görmək istəyirəm, çatmaq istədiyim bütün hədəflər üçün çalışmaq istəyirəm. Həzrət Əlinin (ə) buyuruşundan anlayırıq ki, bu cür insan daha mühüm məsələləri zay etmiş olar. Elə ki, bizlər həşiyə mövzularla məşğul olmağa başlayırıq, biz mühüm məsələləri kənara qoyuruq.

Əgər biz hədəflərimiz içərisində mühüm olanları, onların da içərisində ən mühüm olanları müəyyən etməsək, burada da ciddi bir problemlə üzləşəcəyik. Çünki, bizim düşüncəmiz, fikrimiz bütün hədəfləri əhatə etmək gücündə deyil. Həzrət Əli (ə) buyurur: **"Sənin fikrin bütün işləri əhatə edəcək qədər genişliyə malik deyil. Bəs onu mühüm işlər üçün sərbəst saxla".**

Bəzən əxlaq ustadlarından soruşulur ki, namazda qəlb hüzuruna malik olmaq üçün nə edək? Əslində, insanın bu durumu, yəni qəlb hüzuruna malik olmaması - bir nəticədir. Ciddi səbəblərdən biri də budur ki, insan boş, əbəs işlərə vaxt ayırır. Qəlb əbəs, boş işlərlə məşğul olanda, qəlb onlarla qidalanan da namazda artıq o qəlbin təravəti qalmır. Biz fikrimizi, düşüncəmizi, qəlbimizi ən mühüm olan məsələlər üçün sərbəst saxlamalıyıq.

### Hədəfə hər vasitə ilə çatmaq olmaz

İslam inancına görə, hədəfə hər vasitə ilə çatılmaz. Dünyəvi anlamda olan hədəfə çatmaqla İlahi uğura aparan hədəfə çatmaq arasındakı ən ciddi fərqlərdən biri də məhz budur. Həzrət Əmirəlmömininin (ə) buyurur: **"O kəs ki, günah onun vasitəsilə qalib gələr - qalib deyil. O kəs ki, pisliklə qalib olub - məğlub olmuşdur".**

İslamın nəzərində hər hansı zahiri uğur və müəvəffəqiyyət ki, günahla, pisliklə, mənfiliklə olar - o, qələbə deyil, əksinə, məğlubiyyətdir. İslam bunu uğur bilmir. Deməli, bizim hədəfə çatmaqda vasitələrimiz də Allah bəyənən olmalıdır.

### Mühüm hədəflər içərisində ən mühüm olanları seçməli

İnsanın həyatında hədəfləri olmalıdır. Burada dəyərli böyük alimlərin buyuruşunu xatırlatmaq yerinə düşər ki, **"Bizim bu həyatda özümüzü islahdan, düzəltməkdən daha mühüm işimiz yoxdur".** Bu dünyada ən mühüm işimiz - özümüzü düzəltməkdir. Və məhz həmin o iş üçün sağlam olmalıyıq, ruzimiz olmalıdır, düzgün həyat tərzimiz olmalıdır və s. Amma, sağlamlığımız özümüzü islah etmək üçün vasitə olmalıdır, hədəfə çevrilməməlidir. Halal ruzi qazanmaq bu iş üçün vasitə olmalıdır, hədəfə çevrilməməlidir.

Biz istək və hədəflərimizin içərisində daha mühümlərini, daha köklülərini müəyyənləşdirməliyik. Bu işlərin ən başlıcası - özümüzü islahdır. Özümüzü islah etməsək və bu durumda maddi imkanlara çatsaq - bunun bizim üçün xeyri olmayacaq. Bəşəriyyətin bu gün faciəsi budur ki, əsas məsələləri kənara qoyub, haşiyələrlə məşğul olmaqdadır. Sanki bir rəssamdır, qələmi yonmaqla məşğul olmağa başladı ki, qələm yaxşı çəksin. Sonradan şəkil çəkmək hədəfi unuduldu, neçə əsrlərdir elə həmin qələmi necə yonmaq üstündə müzakirələr, polemikalar, ixtiralar, kəşflər həyata keçirilir. Unuduldu ki, qələmi nə üçün yonurdular. Qələmi yonmalıydılar ki, qayıdıb təzədən şəkli çəkməyi davam etdirsunlər. Amma bu, unuduldu və bütün fikir adamları fəlsəfəni qələmi necə yonmaq üzərində qurdular.

Bu cür də biz bəzən vasitələri əsas hədəflərə çevirmiş oluruq. Biz ruzi dalınca gedirdik ki, özümüzü islahla məşğul olarkən ruzi sıxıntımız olmasın. Amma sonradan ruzi qazanmaq özü bizlər üçün hədəfə çevrildi.

Özünü islah üçün sağlamlığın olması çox önəmlidir. Bu gün bəşəriyyət tibb sahəsində böyük nəticələrə çatıb. Amma faktiki hədəf - özünü islah üçün tibbin inkişafı deyil, hədəf, burada nə qədər bacarırıqsa çox yaşamaq və bunun üçün tibbi də inkişaf etdirməkdir.

Bir mömin gənc ailə quranda düşünür ki, təkamül üçün, Allaha yaxşı bəndə olmaq üçün evlənmək, ailə həyatı qurmaq zəruridir. Sonradan bu niyyət sözdə qalır, ailədə davranışlar, ailədə münasibət, ailə ilə davranış məsələnin mahiyyətinə keçir. Bir ömür insanın işi-gücü özünün, övladlarının, sonra nəvələrinin, nəticələrinin gələcəyini düşünməklə keçir. Ailə əsas hədəfi kənara qoyub, özü hədəfə çevrilir. Özü hədəfə çevriləndə isə, vəziyyət pisləşir.

### Düzgün hədəf düzgün seçimlərə yönəldir

Bu, mütləqdir ki, biz hədəf mövzusunda düşünək. Hədəflərimizi məüyyən etməli, mühüm olanları seçməli, ən mühümlərinə diqqət etməliyik. Bu aydın olandan sonra işimiz asanlaşır. Belə ki, dalanlara dirənəndə, seçim anı gələndə prioritetlərə görə vəzifəmizi düzgün müəyyən edə bilirik.

Bir şey bizim namazımızı aradan aparacaqsa, deməli, o, bizim prioritetimiz ola bilməz. Bir şey bizim bir ömür namazımızı axır vaxtda qılmağımıza gətirib çıxaracaqsa, ondan bizə xeyir yoxdur.

Fərq yoxdur - istər ruzi qazanmaq olsun, istər sağlamlıq üçün çalışmaq, istər elm almaq, təhsillənmək və s. - bütün bunlar bizim üçün əsas hədəf olmamalı və bizi əsas hədəfdən yayındırmamalıdır. Bunlar yalnız bizi hədəfə aparan vasitə olarkən çox önəmli və mühümdür.

### Əhli-Beytə (ə) qarşı zülmlərin kökündə hədəfdən uzaqlaşmaq dayanıb

Deyə bilərik ki, bu gün İslam ümmətinin ən böyük problemlərindən biri məhz budur. Aydın hədəf olmayanda işlər korlanır. Əgər aydın hədəf olsa, fərdi, ailəvi, ictimai, siyasi - hər mövzuda nəticəyə gedib çıxmaq olur. O toplum ki, aydın hədəflərini itirir, böyük cinayətlərə qədər gedib çıxa bilir.

Əhli-Beytə (ə) qarşı edilmiş zülmlərə baxanda görürük ki, Peyğəmbərdən (s) sonra aydın hədəflərini unudan toplumlar böyük-böyük cinayətlərə yol verir. Aydın hədəfini itirən toplum Fədək faciəsinə qol qoyur, hətta Peyğəmbərin (s) qızına qarşı hörmətsizlik edir, Həzrət Əlinin (ə) haqqının qəsb olunmasına yol verir, Əbazərləri (r.ə) sürgün edir, Kərbəla müsibətini törədir və bu kimi.

Bəzilərinin yəgin ki, əvvəldən hədəfi İlahi deyildi. Bəziləri əvvəldən İslama öz dünya mənfəətlərini götürmək üçün gəlmişdilər. Amma kifayət qədər insan doğurdan da böyük yol getmişdi, böyük bir məktəb keçmişdi, amma sonra əsas deyil, haşiyəvi hədəflərlə məşğul olmağa başlamışdılar.

Əksinə - Əhli-Beytin (ə), o cümlədən Həzrət İmam Hüseynin (ə) hədəfi aydın idi. Əgər bu hədəfə çatmaq üçün yol Kərbəladan keçirsə, bu yolu getməyə hazır idi.

**Bizlərin Allahdan ən çox istədiyimiz mövzu da məhz aydın hədəflərə malik olmağımızdır. Hər gün namazımızda, ibadətimizdə Allahdan məhz bunu istəyirik. Namazın niyyətini edərkən qürbət qəsdini edərkən, Allaha yaxınlaşmağı hədəfləyərkən, hədəfimizi müəyyənləşdirmiş oluruq. Allah bizləri bu hədəfimizdən bir an ayrı salmasın!**

**Allahım, aqibətlərimizi xeyirli et!**

**Allahım, bizlərə aydın hədəflərlə özümüzü islaha nail olmağı nəsib et!**

**Allahım, bizi Sənə yaxınlaşdıran hədəfə doğru yaxınlaşdır! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 97 (6986) 4 may 2018



# Bu klinikada yalançılıq müalicə edilir

İnsanlar üçün gündə orta hesabla 2 yalan danışmaq normal qəbul edilir. Amma bu rəqəmi 200-ə qədər artıranlar üçün Berlində bir klinika açılıb. İtaliyanın "Libero" qəztinin xəbərinə görə, "Buratino" sindromundan qurtulmaq üçün "Sofie Charlotte" Xəstəxanasında açılan "Yalançılıqla mübarizə" bölümünə könüllü olaraq gələn və yalan söyləməkdən qurtulmaq istəyənlərin sayında gözlə görülən bir artım müşahidə olunur. Amma müalicə müddəti uzandığı üçün hazırda klinika lazımi sayda xəstəni qəbul edə bilmir. Bu vərdişlərindən qurtulmaq üçün insanlar bəzən aylar, hətta bir ilə qədər davam edən müalicələrdən keçir. Akademik adı "Psödoloji" adlanan bu xəstəliyin qurbanları yalan söyləməklə özünə zövq verəcək heyranlıqlar, əyləncələr, xoşbəxtliklər yaradacaq bir dünyanın arxasınca düşür, sonra da işi şişirdərək başqaları ilə paylaşmağa qərar verirlər. Maraqlıdır ki, klinikada gündə 100 yalan deyən insanlar xəstə kimi qəbul edilmir. Amma gündə 200 və ondan daha artıq yalan deyənlər mütləq müalicədən keçməlidir.

# İlan alimi yemək istəmədi

Discovery Channelin efirində nümayiş etdirilən eksperiment zamanı ilginc hadisə baş verib. Belə ki, anakonda eksperimenti həyata keçirən alimi "yeməkdən" imtina edib. İri bir ilan tərəfindən yeyilmənin necə bir hiss olduğunu araşdırmaq istəyən alimin adı isə Pol Rozoli olub. Geyindiyi xüsusi kostyum onun sağ və zərərsiz qalmasına yardım edəcəkdi. Amma anakondanı araşdırma qrupu aldada bilməyib. Belə ki, ilan onu yeməkdən imtina edib, sadəcə, qolunu və çiynini möhkəm sarıb. "Sarılmalar" möhkəmlənəndə isə alim özünü ilandan azad edib və eksperimenti dayandırıb. Ötən ilin dekabrında alim təcrübə zamanı bir saat ilanın içində olmağı bacarıb. Bu təcrübə ilə bağlı o, təəssüratlarını belə ifadə edib: "Axırıncı xatırladığım şey ilanın mənim gözümün qabağında geniş açılan ağzı idi. Ondan sonra hər şey qaraldı".



# Uşaq atasız böyüsə...

Kanadanın Mc Gil Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, atasız böyüyən uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan dava aqressiv olurlar. Mütəxəssislər atası olmayan uşaqlarla ata-anaları ilə birlikdə böyüyən uşaqların beyinlərini müqayisə ediblər. Araşdırmalar bitdikdən sonra məlum olub ki, atasız uşaqların beyinlərində sosial əlaqələri tənzimləyən hissədə pozuqluqlar əmələ gəlir. Yəni valideynlərindən uzaqda qalan uşaqların davranışlarında anormallıq daha tez nəzərə çarpır. Belə uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan daha aqressiv olurlar. Mütəxəssislər atasız böyüyən qız uşaqlarının sinir sisteminin daha həssas olduğunu da bildiriblər. Belə uşaqlar böyüdükləri zaman çox aqressiv olurlar və ətrafdakılara zərər verməyə çalışırlar. Xüsusilə qız uşaqları spirtli içkilərə və narkotik maddələrə daha meylli olurlar.

Məlumat üçün bildirək ki, mütəxəssislər anasız böyüyən uşaqların heç vaxt özlərinə güvənmədiklərini və kökəlməyə meylli olduqlarını deyirlər.





# Dünyanın ən bahalı tualet kağızı

Dünyadakı ən bahalı tualet kağızını Avstraliyadakı "Toilet Paper Man" şirkəti satışa çıxarıb. 22 karatlıq qızıldan hazırlanmış bu tualet kağızının bir rulonu 1,376 milyon dollardır. Nyu-Yorkdakı dizaynerlər Tobi Venq və Ken Kortni isə pullu müştərilərin sifarişi ilə onların nəcislərinin bir qismini qızıl kapsula qoyur, sonra kapsulun içindəki "analiz"ə qızıl səpir. 2 sm uzunluğu olan belə "bəzək əşya"sına malik olmaq istəyən şəxs 425 dollar ödəməlidir. "Dünyanın ən bahalı tualet kağızını hazırlamışıq. Ayaqyoluna pulla gedənlər, pullarını qoymağa yer tapmayanlar və ya nə qədər pullu olduğunu göstərmək istəyənlər üçün bu tualet kağızı məsləhətdir. Ayaqyolunu qızılla bəzəyən, qızıl unitaz quraşdıranlar da bizim potensial müştərilərimizdir. İstehsal etdiyimiz tualet kağızı çox keyfiyyətlidir", - "Toilet Paper Man" şirkətinin açıqlamasında deyilir.






**QOÇ** - Ulduzlar günün ilk yarısını neytal şəkildə başa vurmağı tövsiyə edir. Hər hansı riskə getmək yolverilməzdir. Təxminən saat 14-dən etibarən iş həyatınızda dönüş gözlənilir. Fürsəti fövtə verməyin.



**BUĞA** - Yaxşı olar ki, bu gün bir qədər özünüzə hesabat verəsiniz. Çünki bu vaxta qədər keçdiyiniz yanlış və doğrulardan nəticə çıxarmağınız sizə stimul verəcək. İstənilən günahdan çəkinin.



**ƏKİZLƏR** - Həyatınızda, yaxın ətrafınızda lazımsız adamlar az deyil. Özünüzdə güc tapıb onların bəzisindən uzaqlaşın. Çünki bu ayın perspektivləri üçün sizə etibarlı adamlar lazım olacaq. Yuxunuza fikir verin.



**XƏRÇƏNG** - Ümumi mənzərə qənaətbəxş olduğundan sizə yalnız doğru seçim etmək qalır. Əgər bu gün pulla bağlı planlarınız varsa, saat 14-ə qədər həll edin. İşdən başınız açılsa, səfərə çıxa bilərsiniz.



**ŞİR** - Bu il ilk dəfədir ki, bürcünüzdə heç bir mənfi yüklü planet yoxdur. Deməli, taktikanız doğru olarsa, yalnız müsbət olayların iştirakçısı olacaqsınız. Özünüzü güclü hiss edin, xeyirxah olun.



**QIZ** - Bu gün əsl siyasətçi xarizması nümayiş etdirin. Hər bir informasiya və situasiyadan dəqiq nəticə çıxarmaq üçün ölçüb-biçin. Hər ifadənizə diqqət yetirin. Nahardan sonra pul problemlərini çözün.



**TƏRƏZİ** - Bütün astroloji göstəricilər doğma və yaxınlarınızla daha mülayim davranmağı məsləhət görür. Gücünüzə güc qatmaq üçün bu, çox vacibdir. Bunu bacarsanız, taleyinizin qızıl dövrü başlayacaq.



**ƏQRƏB** - Bürcünüzün xarakterindən irəli gələn son sözü əvvəldə demək, qədərindən artıq təvazökarlıq sizə problem yarada bilər. Bu səbəbdən hər kəslə mülayim davranın. Səfər isə uğurlu deyil.



**OXATAN** - Maliyyə bxımından uğurlu gün olsa da, münasibətlər müstəvisində diqqətli olmağınız vacibdir. Köhnə palan içi tökməkdənsə perspektivli layihələr üzərində baş sındırmaq daha yaxşı olar.



**OĞLAQ** - Nahara qədər hər hansı qeyri-ənənəvi addım atmağınız xoşagəlməzliklə nəticələnə bilər. Neytrallığınzı qorumağa çalışın. Sonrakı saatlarda nüfuzlu və ya vəzifəli insanlarla səmərəli görüşləriniz gözlənilir.



**SUTÖKƏN** - İlıq Baharın sizə verdiyi müsbət enerjidən lazımınca yararlanın. Gücünüzü artırmaq üçün fəaliyyətə azacıq fasilə verin. Beyninizdəki arzuları götür-qoy etmək üçün bundan yaxşı gün olmayacaq.



**BALIQLAR** - Kənardan sizə qarşı hər hansı neqativ və ya müsbət təsir olmayacaq. Necə deyərlər, nə əkəcəksinizsə, onu da biçəcəksiniz. İxtiyar sahibi olduğunuz üçün çalışın ki, yalnışlığa yol verməyəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Elə bildi küçükdür, böyüyəndən sonra ayı olduğu ortaya çıxdı

Çinin Yunnan əyalətindəki bir kənddə yaşayan Vanq Kayuinin iki il əvvəl satın aldığı iki küçüyün əslində ayı olduğu üzə çıxıb. Çinin Vyentnamla sərhədində banan yetişdirməklə məşğul olan bir adamdan küçükləri satın alan Vanq heyvanlar böyüdükcə onların itə oxşamadığının fərqinə varıb. Küçüklərin çox sürətli şəkildə çəki almasını onların yaxşı qidalanması ilə əlaqələndirən Vanq hətta bundan xoşbəxt də olub. Amma "küçüklərin" baxçadakı toyuqları yeməyə başladıqlarını görəndə hər şeyin fərqinə varıb. Veterinara apardığı heyvanların isə nəsli tükənməkdə olan bir ayı növünə aid olduğu üzə çıxıb. Veterinar ona heyvanları yetkililərə aparmağı tövsiyə edib. Heyvanlar Vəhşi Heyvan Qoruma Mərkəzinə verilib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.